23 yanvar 2019 №6 (1591) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Davosda dünyanın gələcək arxitekturası müzakirə olunur

Yanvarın 22-də İsveçrənin Davos şəhərində 49-cu Dünya İqtisadi Forumu işə başlayıb. Alp dağlarındakı dağ-xizək kurortunda keçirilən ənənəvi foruma 3 minədək nümayəndə - dövlət və hökumət başçıları, nazirlər, ekspertlər, iri şirkətlərin rəhbər və təmsilçiləri, beynəlxalq təşkilatların rəsmiləri qatılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Forumunda iştirak edir. Dövlət başçısı bir sıra görüşlər keçirib.

Davos Forumunun budəfəki mövzusu "Qloballaşma 4.0: Dördüncü sənaye inqilabı əsrində qlobal arxitekturanın formalaşdırılması" adlanır.

Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Karl Şvab açılış çıxışında ölkələri beynəlxalq əməkdaşlığı gücləndirməyə çağırıb: "Bu forumda dünyadakı vəziyyət nəzərdən keçiriləcək və vəziyyəti yaxşılaşdırmaq üçün əməkdaşlıq qurulacaq. Biz bəşəriyyət tarixində kəsişmə nöqtəsinə gəlib çatmışıq, indi gələcəyimizi daha yaxşı qurmalıyıq".

K.Şvab dünyanın axarını dəyişməli olan addımların gələcəyə istiqamətli və məqsədli şəkildə atılmalı olduğunu vurğulayıb: "Builki toplantının mərkəzində qloballaşmanın yeni mərhələsinin özü ilə gətirdiyi çağırışlar dayanacaq". O, bütün fəaliyyətlərin mərkəzində insan faktorunun dayanmalı olduğunu bildirib.

"Rəqəmsallaşma yaxın gələcəkdə özü ilə inqilabi dəyişikliklər gətirəcək. Bunların hər biri ayrılıqda dünya üçün ciddi çağırış deməkdir" – bu fikri isə Davos Forumunun prezidenti, Norveçin sabiq xarici işlər naziri Berge Brende bildirib.

Forumda rəqəmsallaşma, süni intellekt, Avropa və Afrika əməkdaşlığı, qlobal ticarət münaqişələrinin nizamlanma yolları müzakirə ediləcək. Forum işinə yanvarın 25-də yekun vuracaq.

## Xarici ölkələrlə əməkdaşlıq əlaqələrində mədəniyyət xüsusi yer tutur

Mədəniyyət naziri Əbülfəs Qarayev Səudiyyə Ərəbistanı Krallığı, Gürcüstan Respublikası, Misir Ərəb Respublikası və Braziliya Federativ Respublikasının ölkəmizdəki səfirləri ilə görüşüb.

Görüşlərdə Azərbaycanın bu ölkələrlə mədəniyyət sahəsində əlaqələri və əməkdaşlığın gələcək perspektivləri, həmçinin həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

səh. 3



## "İntizar"ın növbəti nümayişi tarixi faciəyə həsr edilib

Görkəmli bəstəkar, Xalq artisti Firəngiz Əlizadənin "İntizar" operasının Akademik Opera və Balet Teatrının səhnəsində növbəti nümayişi tarixi faciəyə - 20 Yanvarın ildönümünə həsr olunub.

Əsər özündə Azərbaycan xalqının fikir və arzularını, vətənpərvərliyini və qələbəyə olan inamını tərənnüm edir. Operada əvvəlcə xoşbəxt ailəni görürük. Ailə Arif ilə Mələyin qarşıdakı toyuna hazırlaşır. Lakin Vətənimizin başı üzərini alan qara buludlar bu sadə və gözəl insanların ümid və arzularını həyata keçirməyə imkan vermir.

səh. 4

# Yubilyar ad günündə səhnədə

### Xalq artisti Hacı İsmayılov 75 yaşını doğma teatrda qeyd edib

Yanvarın 22-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində xorvat yazıçısı Miro Havranın pyesi əsasında səhnələşdirilmiş "Qəribə, çox qəribə əhvalat" tamaşası növbəti dəfə təqdim olundu.

Tamaşanın quruluşçu rejissoru Əlif Cahangirli, səhnə tərtibatçısı Xalq rəssamı Nazim Bəykişiyev, bədii rəhbəri Xalq artisti Azərpaşa Nemətovdur. Rollarda xalq artistləri Rafiq Əzimov və Hacı İsmayılov, aktyor Ramin Şıxəliyev çıxış edir. Səhnə əsəri bir qadın tərəfindən aldadılan iki kişinin çıxılmaz vəziyyətlə üzləşməsindən bəhs edir.

Ötən ilin yazından repertuarda olan tamaşanın budəfəki nümayişinin bir özəlliyi də vardı. Tamaşada əsas rollardan birini oynayan Xalq artisti Hacı İsmayılov ad günündə səhnəyə çıxmışdı. Görkəmli aktyor 75 yaşını doğma teatrda, yarım əsrə yaxındır fəaliyyət göstərdiyi sənət ocağında tamaşaçılar qarşısında qeyd etdi. Tamaşanı seyr edənlər arasında Prezident Administrasiyası Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Əbülfəs Qarayev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, teatrın bədii rəhbər-direktoru Azərpaşa Nemətov, yubilyarın sənət dostları, sənətsevərlər vardı.

Tamaşadan sonra Azərbaycan Teatr Xadimləri İttifaqının sədri adından yubilyara təbrik məktubu oxundu və hədiyyə təqdim olundu.

Həmçinin sənətkara yubileyi münasibətilə mədəniyyət naziri Əbülfəs Qarayevin təbrik məktubu təqdim edildi.



Nazir Əbülfəs Qarayev Hacı İsmayılovu 75 illiyi münasibətilə təbrik edərək Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 21-də sənətkarın "Şöhrət" ordeni ilə təltif olunması haqqında sərəncam imzaladığını diqqətə çatdırdı: "Biz sevinirik ki, görkəmli aktyorumuz 75 illik yubileyində səhnədə, tamaşaçıların qarşısındadır". Nazir sənətkara möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzuladı.



Hacı İsmayılov 1944-cü il yanvarın 22-də Bakıda doğulub. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirib. 1968-ci ildə Sumqayıt Dövlət Dram Teatrında fəaliyyətə başlayıb. 1970-ci ildən Akademik Milli Dram Teatrında çalışır. Ötən illərdə bu teatrın səhnəsində tamaşaçı rəğbəti qazanan onlarla xarakterik obraz yaradıb. Aktyorun 1977-ci ildə kinorejissor Rasim Ocaqovun ekranlaşdırdığı "Ad günü" filmində yaratdığı Mustafa obrazı isə ona geniş şöhrət qazandırıb. Sonrakı illərdə sənətkar bir çox filmlərdə, televiziya tamaşalarında yaddaqalan rollar oynayıb. Hacı İsmayılov 1989-cu ildə respublikanın Əməkdar artisti, 2000-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. Prezident təqaüdçüsüdür.

Sevimli aktyoru yubileyi münasibətilə biz də qəzetimiz adından təbrik edir, onu hələ uzun illər səhnədə, ekranda görməyi arzulayırıq.

## Paytaxtımızda İtaliya-Azərbaycan film festivalı keçiriləcək

Yanvarın 25-dən 30-dək Bakıda ilk dəfə İtaliya-Azərbaycan Beynəlxalq film festivalı keçiriləcək.

Festival Mədəniyyət Nazirliyi, film istehsalı şirkətləri olan "İmago Group", "United Cultures" və "Sandro Teti Editore"nin birgə dəstəyi ilə reallaşacaq. Layihə İtaliya və Azərbaycan kino sənayesinin keçmişi, bu günü və gələcəyini təbliğ etmək məqsədi daşıyır.

İtaliyanın Azərbaycandakı səfirliyi, Nizami Kino Mərkəzi və "The Landmark" tərəfindən dəstəklənən festival çərçivəsində seçilmiş 15 müasir film nümayiş olunacaq. Təqdim olunan nominasiyaların qalibləri xüsusi hazırlanmış "Zoroaster award" ilə mükafatlandırılacaq.

"La Piovra" serialında canlandırdığı Tano Cariddi obrazı ilə keçmiş sovet regionunda məşhur olan aktyor və rejissor Remo Girone mükafatlandırma mərasiminə rəhbərlik edəcək, italyan ssenari müəllifi və rejissoru Claudio Rossi Massimi isə festivalın bədii rəhbəri kimi çıxış edəcək.

## Bakıda alman memarlarının izləri

XIX əsrin sonu - XX əsrin əvvəllərində neft bumu yaşanan Bakıda bir sıra xarici ölkələrdən memarların layihəsi əsasında müxtəlif təyinatlı binalar tikilib. Bunların sırasında alman əsilli memarların da ucaltdığı 80-dən artıq bina bu gün paytaxtımızın gözəlliyinə rəng qatır. Bu yazıda Adolf Eyxlerin layihələri ilə Bakıda inşa olunan memarlıq incilərindən söz açacağıq.

Adolf Eyxler 1869-cu ildə Rusiyanın Oryol şəhərində anadan olub. Kimyaçı və əczaçı olan atası Vilhelm Eduard Eyxler 1860-cı ildə məşhur neft maqnatı Vasili Kokerevin dəvəti ilə Bakıya gəlir və Suraxanıda onun neft emalı zavodlarında, kerosin zavodunda çalışmağa başlayır. Qısa müddətdə şöhrəti bütün Bakıya yayılır. 1888-ci ildə artıq "Neft sənayeçiləri birliyi" kerosinin keyfiyyətinə nəzarət etməyi ona həvalə etmişdi. O həm də şəhərin ictimai həyatında fəal iştirak edirdi. Təbiətsevər şəxs idi, öz vəsaiti hesabına 1878-ci ildə Mixaylov (indiki Qubernator) bağını abadlaşdırmışdı. Əsilzadələrin sevimli istirahət məkanı olan bağda nadir ağaclar əkilmişdi.

1891-ci ildə Vilhelm Eduard Eyxler vəfat edir, Adolfla daha çox əmisi Karl maraqlanır. Onu da qeyd edək ki, Bakıda ilk apteki də Karl Eyxler açmışdı. İndiki "Araz" kinoteatrının yaxınlığında, Nizami küçəsində yerləşən aptek "Eyxlerin apteki" kimi tanınırdı...

davamı səh. 6-da

## Hər şeydən öncə "Qarabağnamə"

İllərlə adı afişadan düşməyən, 10-20 ildən çox repertuarda qalan, seyrçi cəlb edən tamaşanı həm də qocaman tamaşa hesab etmək olar. Çağdaş Azərbaycan teatrında tamaşaçı probleminin nə qədər aktual olduğunu qeyd etməklə yanaşı, paytaxt teatrlarında (yaxşı axtarsaq, bölgələrdə də) belə uzunömürlü tamaşalar tapmaq mümkündür.

"Qocaman tamaşalar" rubrikasında ilk olaraq yolumuzu ana teatrdan – Azərbaycan Dövlət Akademik Milli Dram Teatrından salmışıq. Bu silsilədən ilk yazımız iyirmi üç ildən bəri teatrın repertuarında olan Xalq yazıçısı İlyas Əfəndiyevin "Qarabağnamə" (ilk quruluşda adı: "Hökmdar və qızı") ikihissəli faciəsidir. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, səhnə tərtibatçısı Əməkdar rəssam, mərhum İsmayıl Məmmədovdur.

İlk dəfə 1996-cı il dekabrın 14-də oynanılmış "Hökmdar və qızı" tamaşası görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin sonuncu pyesidir. Bu əsər həm də dramaturqun sağlığında hazırlanmış, lakin premyerasını görmək ona qismət olmayan yeganə səhnə əseridir.

səh. 7

### Avey qoruğundakı Damcılı mağara düşərgəsinə yeni yol çəkilir



səh. 6

### Diplomatik korpusun nümayəndələri Şirvanşahların irsi ilə tanış olublar

səh. 3



### Fransızdilli oxuculara Azərbaycan ədəbiyyatı haqqında

səh. 8

№6 (1591)
23 yanvar 2019
www.medeniyyet.az

## Hacı İsmayılov "Şöhrət" ordeni ilə təltif olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Xalq artisti, tanınmış teatr və kino aktyoru Hacı Məcid oğlu İsmayılovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Aktyor Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə təltif edilib. Qeyd edək ki, yanvarın 22-də Hacı İsmayılovun 75 yaşı tamam olub.

## Azərbaycanda "Nəsimi ili"nin elan edilməsi geniş rezonans doğurub

Mərakeşin "Əl-İslah və Ət-Tənmiyə" qəzetində "Prezident İlham Əliyev Azərbaycanda 2019-cu ili "İmadəddin Nəsimi ili" elan edib" sərlövhəli məqalə dərc edilib.

Məqalədə dövlət başçısının sərəncamı ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin geniş şəkildə qeyd olunacağı diqqətə çatdırılır. Bildirilir ki, İmadəddin Nəsiminin yubileyi (600 illiyi) beynəlxalq miqyasda ilk dəfə UNESCO tərəfindən 1973-cü ildə keçirilib.

Qəzetdə Nəsiminin həyatı barədə məlumat verilir. Qeyd olunur ki, mütəfəkkir şair Azərbaycanda (Şamaxıda) anadan olub. Dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənib. Hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Onun Azərbaycan dilində yazılmış "Divan"ı qorunub saxlanılıb, eyni zamanda, fars və ərəb dillərində əsərləri qalıb.

## Mədəniyyət naziri Xızı şəhərində vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev tərəfindən 2019-cu il yanvar ayının 25-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhərindən, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşa rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

## Mədəniyyət Nazirliyi sistemində kadr islahatları

Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrində yeni təyinatlar olmuşdur.

Nazirliyin Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Tahir Əliyev öz ərizəsi ilə tutduğu vəzifədən azad edilmişdir.

Mədəniyyət naziri Əbülfəs Qarayevin əmri ilə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Ramiz Quliyev bu vəzifədən azad edilərək Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi təyin edilmişdir.

Nazirin digər əmri ilə Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəis müavini Vüqar Qədirov Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi təyin olunmuşdur.

Ölkəmizdə mədəniyyət siyasətinin daha məqsədyönlü və effektiv şəkildə həyata keçirilməsi, o cümlədən regionlarda mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsi, mədəniyyət müəssisələrinin işinin yaxşılaşdırılması, regional mədəniyyət idarələrinin fəaliyyətinin dövrün tələblərinə uyğun təşkili məqsədilə kadr islahatları davam etdiriləcək.

## Ölkəmiz "Berlinale Talents" proqramında təmsil olunacaq

Fevralın 7-dən 17-dək Almaniyada "Berlinale" kimi tanınan və dünyanın ən nüfuzlu festivallarından olan 69-cu Berlin film festivalı keçiriləcək. 1951-ci ildən etibarən hər il keçirilən, dünya kinematoqrafiyasının ən gözlənilən tədbirlərindən biri olan "Berlinale" festivalında ümumilikdə 400-dən çox ekran əsəri nümayiş etdiriləcək.

Festival çərçivəsində fevralın 9-dan 14-dək baş tutacaq "Berlinale Talents" beynəlxalq kino proqramında ölkəmiz də təmsil olunacaq. Həmyerlimiz Samirə Əsgərova bu proqramda iştirak üçün müxtəlif ölkələrdən olan ərizəçilər arasından seçilib.

Samirə Əsgərova Azərbaycanın aparıcı yayım distribusiya şirkəti olan "Cinema Distribution"da yerli və xarici filmlərin kinoteatrlarda nümayişinin təşkili ilə məşğul olur.

**LALƏ**

## Abidə və muzeyləri 28 milyon insan ziyarət edib

2018-ci ildə Türkiyənin tarixi abidə və muzeylərini ziyarət edənlərin sayı 28 milyon 144 min 670 nəfər təşkil edib.

"Anadolu" agentliyinin xəbərinə görə, ən çox ziyarət edilən məkan Topqapı Sarayı Muzeyi – 2 milyon 980 min 450 nəfər. Müqəddəs Sofiya məbədi (Ayasofya) ikinci yerdə qərarlaşıb (2 milyon 890 min 873 nəfər).

Sırada üçüncü olan Konya Mövlana Muzeyini il ərzində 2 milyon 817 min 386 adam ziyarət edib.

Qeyd edək ki, 2017-ci ildə Türkiyənin muzey və tarixi abidələrini 20 milyon 509 min 746 nəfər ziyarət etmişdi.

## Tarixi şəxsiyyətlərin ipək üzərində portretləri sərgilənəcək

Yanvarın 25-də "Azərkitab" Kitab Mərkəzində gənc rəssam Elmar Məmmədzadənin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı rəsm sərgisi açılacaq.

Rəssamın 40-dək sənət əsəri nümayiş ediləcək. Sərgidə tarixi şəxsiyyətlərin ipək üzərində işlənmiş portretləri yer alacaq.

# Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Üzeyir Hacıbəyli" fəxri medalına layiq görülüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edilib.



Azərbaycan Bəstəkarlar İttifaqı Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmiş dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi, görkəmli musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin zəngin irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına verdiyi əvəzsiz töhfələrə görə fəxri medalı ilk olaraq Mehriban Əliyevaya təqdim etməyi qərara alıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə 2005-ci ildə Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə birinci muğam müsabiqəsi keçirilib. 2008-ci ildə dahi bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş "Üzeyir dünyası" layihəsi işıq üzü görüb. Həmin nəşrə "Ömür salnaməsi", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərlər" kitabları, "Leyli və Məcnun", "Koroğlu" operaları və "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir. Bunlardan əlavə, 2009-cu ildən etibarən ənənəvi olaraq bir çox ölkələrdən dünya şöhrətli musiqiçiləri bir araya toplayan Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təşkil edilir.

2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 1945-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağ-qara formatda çəkilmiş, Azərbaycan kino sənətinin əfsanəsi olan "Arşın mal alan" filmi bərpa edilərək rəngli versiyası hazırlanıb.

# "Testene Art Baku"

### Beynəlxalq incəsənət festival-müsabiqəsi üçüncü dəfə təşkil olunacaq

Martın 13-dən 17-dək Mədəniyyət Nazirliyinin dəstəyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin, İtaliya Beynəlxalq Mədəniyyət Assosiasiyasının və Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbinin təşkilatçılığı ilə "Testene Art Baku" III Beynəlxalq incəsənət festival-müsabiqəsi keçiriləcək.




Baş idarədən bildirilib ki, müsabiqə instrumental, vokal, rəqs, teatr, folklor, moda və dizayn, dekorativ-tətbiqi sənət, xalq çalğı alətləri nominasiyaları üzrə təşkil ediləcək. Yarışmada müxtəlif yaş qrupları üzrə respublikamızın və dünyanın müxtəlif ölkələrindən kollektivlər iştirak edəcək.

Müsabiqənin münsiflər heyəti tərəfindən fortepiano, skripka ixtisasları və rəssamlıq üzrə ustad dərsləri təşkil olunacaq.

Sonda mükafatlandırma mərasimi və möhtəşəm qala-konsert keçiriləcək, seçilmiş iştirakçılara hədiyyələr təqdim olunacaq.

Münsiflər heyətinin tərkibində Azərbaycanla yanaşı, Rusiya, Qazaxıstan, Litva, İsrail və İtaliyadan olan nümayəndələr yer alacaq.

## Nəsiminin "Hüseyni" təxəllüsü ilə yazdığı şeirləri aşkarlanıb

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya üzrə elmlər doktoru Paşa Kərimov böyük Azərbaycan şairi İmadəddin Nəsiminin "Divan"ının - lirik şeirlər toplusunun Ankaranın Milli Kitabxanasında saxlanılan iki əlyazma nüsxəsinin sürətini əldə edib.



İnstitutdan bildirilib ki, bu nüsxələrdə şairin "Hüseyni" təxəllüsü ilə yazdığı şeirləri aşkar edilib. 105 vərəqdən ibarət birinci əlyazmanın başlığı "Divani-Həzrət Seyyid-Nəsimi" kimi getsə də, buradakı şeirlərin çoxu "Hüseyni" təxəllüsü ilə yazılıb. 124 vərəqdən ibarət ikinci əlyazmada şairin həm "Nəsimi", həm də "Hüseyni" təxəllüsü ilə yazdığı şeirləri var.

# Musiqili teatrda Ofeliya Aslanın xatirəsi anılacaq

Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının yanvarın 25-də Azərbaycan Dövlət Musiqili Teatrında növbəti nümayişi görkəmli aktrisa Ofeliya Aslanın (1939-2010) 80 illik yubileyinə həsr ediləcək.



Özünəməxsus ifası ilə hər zaman tamaşaçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanan, sevilən aktrisa bu tamaşada həyat yoldaşı – Xalq artisti Səyavuş Aslanla (Vəli) tərəf-müqabili olub, Telli rolunu ifa edib.

Ofeliya Aslan 1939-cu il yanvarın 27-də Bakıda görkəmli aktyor Rza Əfqanlı və ilk qadın teatr rəssamımız Bədurə Əfqanlının ailəsində doğulub. Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya aktyoru ixtisası üzrə bitirib.

Musiqili Komediya Teatrında əvvəl xor artisti, sonra isə aktrisa kimi çalışıb.

"Durna" (Lalə), "Beş manatlıq gəlin" (Gülnaz), "Arşın mal alan" (Telli), "Hicran" (Çarliston), "Axırı yaxşı olar" (Dilbər), "Bankir adaxlı" (Səmayə) və digər tamaşalarda, həmçinin, "Yol əhvalatı", "Xoşbəxtlik qayğıları", "Adı sənin, dadı mənim", "Evləri köndələn yar" kimi film və teletamaşalarda yaddaqalan obrazlar yaradıb. 18 may 2010-cu ildə vəfat edib.

# İsveçrə və Azərbaycan fotoqraflarının sərgisi



Yanvarın 23-də Müasir İncəsənət Muzeyində isveçrəli fotoqraf Sedrik Kristofer Merklinin "Yustistalda pendir bölüşdürülməsi" və azərbaycanlı fotoqraf Elmar Mustafazadənin "Sənətkarlıq ustaları" adlı fotosərgisi açılacaq.

Sərgi İsveçrənin Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə reallaşacaq.

Merklinin fotoları İsveçrə Alpında fermerlərə məxsus qədim ənənəyə həsr edilib. "Çastaylet" adlanan 300 illik bu ənənə Yustistalda hər payız bayram edilir.

Elmar Mustafayevin fotoları isə Azərbaycanda qədim və ənənəvi sənətkarlığı əks etdirir.

# Gənc və həvəskar rəssamlar üçün növbəti müsabiqə

"Arts Council Azerbaijan" təşkilatı "START" layihəsi çərçivəsində gənc və həvəskar rəssamların inkişafı üçün növbəti rəsm müsabiqəsi elan edib.




"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Gənclər Şəbəkəsinin təşkilatçılığı ilə reallaşan müsabiqədə hər kəs iştirak edə bilər.

Yağlı boya janrında olacaq əsərlərin ölçüsü 50x70-dən az olmamalıdır. İştirakçılar əsərlərinin ölçüsünü, fotosunu (kiçik ölçüdə), rəssamın adını və əlaqə nömrəsini qeyd edərək martın 30-dək sergi@artscouncil.az elektron ünvanına göndərə bilərlər.

Layihənin məqsədi incəsənətin təbliğində gənclərin rolunu artırmaq, onların bu işin təbliğatçısı qismində çıxış etmələrinə dəstək olmaqdır. Apreldə müsabiqənin yekunu olaraq seçilmiş əsərlərdən ibarət sərginin açılması nəzərdə tutulur.

## Moskvada caz-muğam konserti

Moskvanın "Başmet Mərkəz" Mədəniyyət və Yaradıcılıq Evində Riad Məmmədov triosunun konserti olacaq.



Mərkəzin saytında yer alan məlumata görə, martın 1-də keçiriləcək konsertdə moskvalı musiqisevərlərə muğam janrında interpretasiya təqdim ediləcək. Konsertlə bağlı mətbuat üçün açıqlamada deyilir: "Moskva səhnəsində ilk dəfə olaraq Azərbaycan xalq yaradıcılığının unikal peşəkar janrı olan muğamın təqdimatı olacaq. Caz-muğamın bütün dünyada cəmi bir neçə professional ifaçısı var ki, onlardan bir də bu musiqi janrını təkcə praktiki deyil, həm də elmi cəhətdən təqdim edən Riad Məmmədovdur".

Konsertin proqramına klassik və caz musiqisinin nümunələri daxil edilib. Pianoçu Riad Məmmədov, kontrabasçı İqor Kondur və zərb alətləri ustası Yevgeni Ryaboyun ifasında muğamla yanaşı, Frederik Şopenin, Aleksandr Skryabinin və Sergey Raxmaninovun əsərləri səslənəcək.

# Xarici ölkələrlə əməkdaşlıq əlaqələrində mədəniyyət xüsusi yer tutur

## Mədəniyyət naziri Səudiyyə Ərəbistanı, Gürcüstan, Misir Ərəb Respublikası və Braziliyanın ölkəmizdəki səfirləri ilə görüşüb

**İslam mədəniyyəti həftəsi keçiriləcək**

Yanvarın 21-də Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri Hamad Abdulla Khudairi qəbul edib.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələr və əməkdaşlığın gələcək perspektivləri, həmçinin həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

2019-cu ildə Səudiyyə Ərəbistanında və Azərbaycanda İslam mədəniyyəti həftəsinin keçiriləcəyini xatırladan Əbülfəs Qarayev bu tədbirlərin qarşılıqlı mədəni mübadilə üçün şərait yaradacağını qeyd edib.

**Mövcud əməkdaşlığın inkişaf etdirilməsi**

Həmin gün nazir Əbülfəs Qarayev Gürcüstanın ölkəmizə yeni təyin olunmuş səfiri Zurab Pataradze ilə də görüşüb.

Söhbət zamanı iki ölkə arasında mədəniyyət sahəsində mövcud əməkdaşlıqdan, mədəniyyətin qarşılıqlı maraq kəsb edən sahələrində reallaşdırıla biləcək tədbirlərdən bəhs olunub. Həmçinin Azərbaycanda və Gürcüstanda təşkil olunan beynəlxalq tədbirlərdə iştirak məsələləri müzakirə edilib.

**Ölkəmiz Misirdə festivallarda təmsil olunacaq**

Mədəniyyət naziri Əbülfəs Qarayev yanvarın 22-də Misir Ərəb Respublikasının Azərbaycandakı səfiri Adel İbrahimlə görüşündə qarşılıqlı maraq doğuran bir sıra məsələlər diqqətə alınıb.

Söhbət zamanı Misirin mədəniyyət nazirinin Azərbaycana gözlənilən səfərinin təfərrüatları, 5-9 fevral 2019-cu il tarixində Qahirə şəhərində keçiriləcək 1-ci İslam Əməkdaşlıq Təşkilatı Festivalı, həmçinin mart ayında təşkil ediləcək Şarm əl-Şeyx Beynəlxalq Film Festivalında ölkəmizin təmsil olunması məsələləri müzakirə edilib.

**Braziliya ilə mədəni əlaqələrin perspektivləri**

Azərbaycanın Braziliya ilə mədəniyyət sahəsində əməkdaşlığı üçün imkanlar var. Bu barədə nazir Əbülfəs Qarayevin Braziliya Federativ Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Manuel Adalberto Karlos Montenegro Lopes da Kruz ilə görüşündə söhbət açılıb.



Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələr və əməkdaşlığın gələcək perspektivləri, həmçinin gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Nazir səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulayıb.

* * *

Qeyd edək ki, mədəniyyət naziri keçirilən görüşlər zamanı 2019-cu ilin may ayında Bakı şəhərində V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkil olunacağını diqqətə çatdırıb və qonaqları foruma dəvət edib.

# Diplomatik korpusun nümayəndələri Şirvanşahların irsi ilə tanış olublar

Şirvanşahlar Saray Kompleksində ötən ilin oktyabrından davam edən "Şirvanşahlar irsi dünya muzeylərində" adlı sərgi sona çatır.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri yanvarın 18-də sərgiyə baxıblar.

Əvvəlcə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Elmi-Mədəni Mərkəzinin direktoru Cavid Kazımov sərgi haqqında məlumat verib. Bildirilib ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə reallaşan sərgi "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" mövzusunda beynəlxalq elmi konfrans çərçivəsində təşkil edilib.



Vurğulanıb ki, oktyabrın 23-də açılan sərgidə Şirvanşahlar dövləti zamanında yaradılmış dəyərli maddi mədəniyyət nümunələri təqdim edilir. Sərgidə ilk dəfə İstanbul Əsgəri Muzeyi və Gürcüstan Milli İncəsənət Muzeyindən gətirilən nadir eksponatlar nümayiş olunur.

Qeyd edilib ki, XVI əsrin əvvəllərində qanlı döyüşlərdən sonra Şirvanşahlar sarayından qənimət kimi aparılan sonuncu Şirvan hökmdarı Fərrux Yasara aid 4 dəbilqə, Şirvanşah Keyqubad və Şirvanşah I Xəlilullaha aid zirehli köynəklər müvəqqəti də olsa öz doğma məkanında sərgilənir. Həmçinin sərgidə Gürcüstan Milli Muzeyindən gətirilən Pir Hüseyn xanəgahına məxsus kaşı nümunələri də yer alıb.

Diplomatlar sərgidən xoş təəssüratla ayrılıb.

Qeyd edək ki, sərgi yanvarın 23-də başa çatacaq.

# Ukrayna Azərbaycanla birgə mədəniyyət layihələrində maraqlıdır

Azərbaycanda və Ukraynada hər iki ölkənin mədəniyyət günlərinin keçirilməsi üçün münbit şərait yaranıb. Bu il mədəniyyət günlərinin keçirilməsi üçün lazımi işlər görülə bilər.

Bu sözləri Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevlə görüşündə Ukraynanın mədəniyyət naziri Yevgeni Nişuk deyib.



Nazir bildirib ki, il ərzində iki ölkə arasında mədəniyyət sahəsində birgə layihələrin sayını artırmaq olar və Ukrayna tərəfi buna hazırdır.

Azərbaycanla əməkdaşlığın Ukrayna üçün xüsusi önəm kəsb etdiyini deyən Yevgeni Nişuk iki ölkə arasında münasibətlərin dinamik inkişaf etməsindən məmnunluğunu ifadə edib.

Səfir öz növbəsində Azərbaycanın çox uğurlu mədəniyyət layihələrini həyata keçirdiyini vurğulayaraq ölkəmizin bu təcrübəni Ukrayna ilə bölüşməyə hazır olduğunu deyib.

# "Fəaliyyətdə olan şəxslər"

## Anna Netrebko və Yusif Eyvazov azərbaycanlı jurnalistin verilişində

Rusiyada tanınmış azərbaycanlı jurnalist Nailə Əsgərzadənin "Fəaliyyətdə olan şəxslər" ("Действующие лица") verilişinin növbəti qonaqları məşhur opera ulduzları – Rusiyanın Xalq artisti, Azərbaycanın "Dostluq" ordeninin laureatı Anna Netrebko və Azərbaycanın Xalq artisti Yusif Eyvazov olub.

"Rossiya 1" kanalında bazar günü (20 yanvar) yayımlanan verilişdə klassik musiqi dünyasının iki məşhur nümayəndəsi yaradıcılıqları, şəxsi həyatları, gələcək planları barədə danışıblar.

Nailə Əsgərzadə özünün "İnstagram" səhifəsində veriliş barədə məlumatı rus və Azərbaycan dillərində yerləşdirib. Jurnalist yazır ki, dünya miqyaslı iki ulduzla veriliş hazırladığına hələ də inana bilmir. "Populyar olmalarına baxmayaraq, ünsiyyətdə səmimi, xoş və gülərüzdürlər. Yusif isə bakılılara xas incə yumoru ilə çəkiliş qrupumuzu dəfələrlə gülməyə vadar edib", - deyə jurnalist bildirib.

Verilişdə qeyd olunur ki, Anna Netrebko və Yusif Eyvazov cütlüyü səhnə fəaliyyəti ilə bağlı hazırda üç ölkədə - Rusiya, Avstriya və ABŞ-da yaşayırlar. Nyu-Yorkdakı evlərinin iş yerinin – "Metropolitan Opera"nın lap yaxınlığındadır. Ev hər zaman qonaqlarla dolu olur. Anna səhnədə olduğu kimi, mətbəxdə də özünü çox arxayın hiss edir, bütün yeməkləri özü hazırlayır, pəhriz barədə isə heç düşünmür. Həyat yoldaşının xətrinə Azərbaycan plovunu bişirməyi də öyrənib.



# Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti İdarə heyətinin yeni tərkibi seçilib

Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyəti İdarə heyətinin növbəti iclası olub.

Cəmiyyətin sədri Şavkat Şaripov 2018-ci ildə görülən işlər, 2019-cu ilin planları haqqında danışıb. İdarə heyətinin yeni tərkibi seçilib.

Cəmiyyətin fəaliyyətinin genişlənməsində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə əməkdaşlığın mühüm rolu qeyd edilib. Mərkəzin direktoru Samir Abbasov qurumun İdarə heyətinin üzvü seçilib.

2014-cü ildə iki qurum arasında imzalanan memoranduma əsasən, mədəniyyət, ədəbiyyat, informasiya, turizm sahələrində, habelə Özbəkistanda yaşayan tanınmış azərbaycanlıların irsinin əbədiləşdirilməsi və təbliği ilə bağlı layihələr həyata keçirilir.

# Bakı Xoreoqrafiya Akademiyasında 20 Yanvar həftəsi

Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksində (BXA) 20 Yanvara həsr olunmuş silsilə tədbirlər keçirilib. 20 Yanvar həftəsi çərçivəsində keçirilən tədbirlərdən biri də "20 Yanvar hüzn və milli qürur günüdür" mövzusunda elmi sessiya olub.

Tədbirdən öncə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Elmi sessiyanı BXA-nın rektoru, Əməkdar elm xadimi, professor Timuçin Əfəndiyev giriş sözü ilə açaraq Qanlı Yanvar hadisələri haqqında ətraflı məlumat verib və həmin günü azadlığa, müstəqilliyə gedən yolun başlanğıcı adlandırıb. Rektor qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bəyan etdiyi kimi, "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirib".

Sonra BXA-nın Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, professor Vəfa Əliyev çıxış edərək 20 Yanvar hadisələrinin müstəqillik tariximizdə yerindən danışıb, Azərbaycanın suverenliyi, azadlığı uğrunda canını qurban verən şəhidlərimizin adının əbədi olaraq xalqımızın yaddaşına həkk olunduğunu deyib.

Tədbirdə BXA-nın kollecində təsviri incəsənət tarixi fənnini tədris edən Fidan Əsədovanın "20 Yanvar – qan yaddaşımız" adlı tablosu da nümayiş olunub.

Sonda 20 Yanvara həsr edilmiş fotokompozisiya təqdim edilib.

# Regional idarənin şura iclası keçirilib

Sabirabad Regional Mədəniyyət İdarəsinin Şura iclası keçirilib. İclası idarənin rəisi Əhməd Ramazanov açaraq qarşıda duran vəzifələr, 2019-cu ildə görüləcək işlər haqqında danışıb.

Şirvan şəhəri üzrə məsləhətçilərinin məruzələri dinlənilib, müvafiq tapşırıqlar verilib.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, 2019-cu ilin "Nəsimi ili" elan olunması ilə əlaqədar olaraq müəssisə rəhbərlərinə böyük şairin yaradıcılığının təbliği istiqamətində silsilə tədbirlər keçirilməsi barədə tapşırıqlar verilib.

İdarə rəisi mədəniyyət naziri Əbülfəs Qarayevin tövsiyə və tapşırıqlarını müəssisə rəhbərlərinə çatdıraraq, mədəniyyət ocaqlarının fəaliyyətinin sosial mediada, mətbuatda, regional idarənin internet saytında, müvafiq sosial şəbəkə səhifələrində daha geniş işıqlandırılmasının vacibliyini vurğulayıb.



Şura iclasında regional idarənin Sabirabad, Saatlı, Hacıqabul rayonları,

# Varşava orkestrinin dirijor pultu arxasında

Varşavanın "Polşa Radio Konsert Studiyası"nda "Sinfonia Varsovia" simfonik orkestrinin konserti keçirilib.

Orkestrə Azərbaycanın Əməkdar artisti, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, eyni zamanda, Yeni Münxen Simfonik Orkestrinin baş dirijoru Fuad İbrahimov rəhbərlik edib.



"Sinfonia Varsovia" orkestrinin rəhbəri Yanuş Marınovski tərəfindən dəvət olunmuş azərbaycanlı dirijorun idarəsi ilə keçirilən konsertin proqramında tanınmış polyak bəstəkarları Qrajina Batseviç, Miçislav Vaynberq, görkəmli rus bəstəkarı Dmitri Şostakoviç və digər bəstəkarların əsərləri yer alıb.

Yüksək səviyyədə təşkil olunmuş konsert alqışlarla qarşılanıb.

Tədbir zamanı Varşava İncəsənət Akademiyasının rektoru Marçin Zqlinski Azərbaycanın Polşadakı səfiri Həsən Həsənova görüşüb. O, Azərbaycan musiqisinə vurğunluğunu qeyd edərək, 2018-ci ildə Moskvada Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsertdə iştirak etdiyini vurğulayıb.

# Şagirdlər vətənpərvərlik mövzusunda əsərlər səsləndiriblər

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 34 nömrəli Uşaq musiqi məktəbi 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar tədbir keçirib.

Əvvəlcə 20 Yanvar hadisələri barədə məlumat verilib. Vurğulanıb ki, qan yaddaşımıza əbədi həkk olunmuş bu faciə eyni zamanda tariximizin qəhrəmanlıq səhifəsidir.

Sonra məktəbin şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda əsərlər səsləndirilib.



# "Ağlama, şəhid anası"

Şəki şəhər M.F.Axundzadə adına Mədəniyyət Mərkəzində 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş xatirə tədbiri təşkil edilib.

Tədbirdə əvvəlcə 20 Yanvar hadisələrini əks etdirən sənədli film nümayiş olunub.

Sonra "Ağlama, şəhid anası" adlı ədəbi-bədii kompozisiya (bədii rəhbər - Rəşad Rüstəmov) təqdim olunub, şagirdlərin, mədəniyyət işçilərinin ifasında şeirlər, mahnılar səslənib.

# Hüzn və qürur gününə həsr olunmuş musiqi axşamı

## Motsartın "Rekviyem"i şəhidlərin xatirəsinə səsləndi

Qanlı Yanvar faciəsi – tariximizə hüzn və qürur günü kimi yazılan 20 Yanvarın ildönümü ölkəmizin mədəniyyət ocaqlarında müxtəlif tədbirlərlə qeyd edildi, tamaşalar, filmlər nümayiş olundu, sərgilər təşkil edildi.





Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə yanvarın 19-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Qara Yanvarın 29-cu ildönümünə həsr olunan xatirə tədbiri keçirildi.

Mərasimdə mədəniyyət naziri Əbülfəs Qarayev, nazirin birinci müavini Vaqif Əliyev, nazir müavini Rafiq Bayramov, nazirliyin kollektivi, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdi.

Hüzn və qürur gününə həsr olunmuş musiqi axşamında görkəmli Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın "Rekviyem" əsəri şəhidlərin xatirəsinə səsləndi.

Əsəri Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova), solistlər – əməkdar artistlər Fəridə Məmmədova, Səbinə Əsədova, Əliəhməd İbrahimov, Anton Ferştandt ifa etdilər.

**FARİZ**

# "İntizar"ın növbəti nümayişi tarixi faciəyə həsr olunub



Görkəmli bəstəkar, Xalq artisti Firəngiz Əlizadənin "İntizar" operasının Akademik Opera və Balet Teatrının səhnəsində növbəti nümayişi tarixi faciəyə - 20 Yanvarın ildönümünə həsr olunub.

Əsər özündə Azərbaycan xalqının fikir və arzularını, vətənpərvərliyini və qələbəyə olan inamını tərənnüm edir. Operanın libretto müəllifi, akademik Nərgiz Paşayevadır.

Əsərdə əvvəlcə xoşbəxt ailəni görürük. Ailə Arif ilə Mələyin qarşıdakı toyuna hazırlaşır. Lakin Vətənimizin başı üzərini alan qara buludlar bu sadə və gözəl insanların ümid və arzularını həyata keçirməyə imkan vermir. Şəhərlər və kəndlər, çiçəklənən bağçalar, ailə yuvaları dağıdılıb. Hər şey xaosa və tənhalaşmaya məruz qalıb. Nişan mərasimində "Qarabağ şikəstəsi"ni ifa etməsiylə yadda qalan ailənin kiçik övladı – gələcək Xilaskardan başqa bütün üzvləri həlak olur.

Operanın musiqisi ilk notlardan özünün dramatikliyi, lirik melodiyanın gözəlliyi, möhtəşəm xor səhnələri, orkestrin ustalığı ilə insanı ələ alır. Səhnədə baş verən faciəli hadisələri İnarə Babayeva (zərif Mələk), Fərid Əliyev (coşqun Arif), Əkrəm Poladov (alicənab Seyid kişi), Qərinə Kərimova (ailənin anası Əsli) bütünlüklə dərindən hiss edərək öz obrazlarını yaradıblar. İlham Nəcəfovun ifasında Gəlmə və Fəhmi Əhmədlinin ifasında İtkin mənfi obrazları da təsirlidir. Yaralı kəndçinin rolunu Tural Ağasıyev gözəl ifa edir.

Tərkibində yeni, gənc ifaçıların olmasına baxmayaraq, teatrın xoru (xormeyster – Sevil Hacıyeva) da öz ifası ilə tamaşaya ahəng qatırdı. Orkestri teatrın musiqi rəhbəri və baş dirijoru, Əməkdar artist Əyyub Quliyev idarə edirdi. Səhnə əsərinin quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir.

F.Əlizadənin 2007-ci ildə yazdığı "İntizar" operası bir neçə quruluşda, o cümlədən konsert ifası formasında (dirijor – Xalq artisti Fəxrəddin Kərimov), Heydər Əliyev Sarayının səhnəsində tanınmış opera rejissoru, Rusiyanın Xalq artisti Dmitri Bertmanın rəngarəng əfsanəvi təqdimatında da nümayiş etdirilib. Son versiya akademik Nərgiz Paşayevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun layihəsi əsasında yaradılıb. Azadlıqsevər Azərbaycan xalqının faciəli və unudulmayan tarixi səhifələrinə həsr edilən operanın müxtəlif interpretasiyaları əsərin hələ də tükənməyən potensialını nümayiş etdirir.

# Muzeylərdə 20 Yanvar

Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyində 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı "açıq qapı" günü keçirilib.

Muzeyə gələn ziyarətçiləri ekskursiya boyu vaxtilə maestronun ifasında və dirijorluğu altında lentə alınan klassik musiqilər müşayiət edib. Ziyarətçilər muzeyin fondunda saxlanılan, xarici və Azərbaycan klassiklərinin audio-video yazılarından ibarət zəngin fond materiallarından ibarət sərgiyə baxıblar.

Maestro 1997-ci ildə uzun illərdən sonra doğma şəhəri Bakıya qayıdışı zamanı ilk olaraq Şəhidlər xiyabanını ziyarət etmişdi. Bu ziyarətin əks olunduğu videokadrlar qonaqlara təqdim olunub.



"Açıq qapı" günündə həmçinin Əməkdar incəsənət xadimi L.Səfərovanın M.Rostropoviçin azərbaycanlı qaçqınlarla görüşündən bəhs edən "Mərhəmət" filmi nümayiş olunub.

* * *

20 Yanvarın ildönümü ilə bağlı Bülbülün memorial muzeyində ziyarətçilər üçün açıq qapı günü elan edilib. Muzeydə "Qanlı Yanvar" filmi və 1990-cı ilin yanvar hadisələrinin qısa xronologiyası nümayiş etdirilib.

* * *

M.S.Ordubadinin xatirə muzeyi "Qarabağ həqiqətlərini beynəlxalq aləmə tanıtma" İctimai Birliyi ilə birgə tədbir keçirib. Tədbirdən əvvəl iştirakçılar ictimai birliyin yaratdığı "Şəhidlər muzeyi"nin eksponatları və fotosərgi ilə tanış olublar.

Tədbiri muzeyin əməkdaşı İradə Vəliyeva açıb. Şəhid Cavad İsmayılzadənin həyat yoldaşı Həcər İsmayılzadə, qanlı hadisələrin şahidi olmuş texniki fənlər üzrə fəlsəfə doktoru İslam Göyüşov xatirələrini bölüşüblər.

# Regional mədəniyyət idarələrinin müəssisələrində silsilə tədbirlər




20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə Mədəniyyət Nazirliyinin regional idarələrinin tabe müəssisələrində silsilə tədbirlər keçirilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Sumqayıt şəhər 4 saylı Diyarşünaslıq klubunda, Q.Qarayev adına Uşaq musiqi məktəbində, Bülbül və S.Rüstəmov adına uşaq incəsənət məktəblərində, Xızı rayon Uşaq musiqi məktəbində, Zəngilan rayon nümayəndəliyinin təşkilatçılığı ilə Zəngilan rayon kənd klubunda, Qubadlı rayon nümayəndəliyində (rayon MKS ilə birgə) təşkil olunan tədbirlərdə qəhrəman vətən övladlarının xatirəsi yad edilib.

* * *

Xaçmaz Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində də 20 Yanvar şəhidləri yad edilib.

Anım tədbirləri Xaçmaz Heydər Əliyev Mərkəzində, rayon Mərkəzi kitabxanasında, Tarix-diyarşünaslıq muzeyində, Quba Heydər Əliyev Mərkəzində, B.Səfəroğlu adına rayon Mədəniyyət mərkəzində, Qusar Rayon Tarix-Diyarşünaslıq Muzeyində, Şabran rayon Heydər Əliyev Mərkəzində, Ə.Xaqani adına Poeziya evində, Siyəzən rayon Mərkəzi kitabxanası və digər mədəniyyət ocaqlarında təşkil edilib.



* * *

Ağstafa Regional Mədəniyyət İdarəsi üzrə Qazax MKS rayon Mədəniyyət mərkəzinin foyesində 20 Yanvara həsr olunmuş sərgi təşkil edib. MKS-nin təşkilatçılığı ilə kitabxana filiallarında da 20 Yanvarın ildönümü qeyd olunub.

Digər regional mədəniyyət idarələrinin tabe müəssisələrində keçirilən tədbirlərdə də 20 Yanvar şəhidləri anılıb, tariximizin hüzn və qürur səhifəsindən söhbət açılıb.

# Vətənpərvərlik mövzusunda səyyar sərgilər

Sabirabad Rayon Tarix-Diyarşünaslıq Muzeyində əsaslı təmir işlərinin aparılması ilə əlaqədar əməkdaşlar tərəfindən səyyar sərgilər həyata keçirilir.

"Vətəni sevmək azdır, onu qorumaq gərək" başlıqlı ilk səyyar sərgi N.Nərimanov adına 2 saylı tam orta məktəbdə nümayiş olunub. Sərgidə sabirabadlı milli qəhrəmanlar Mübariz Əhmədov, Fərhad Ağayev və Murad Mirzəyevin, 20 Yanvar şəhidləri Zəbulla Əliyevin, Mehman Məmmədovun, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Maqsud Daşdiyevin, Daşqın Əhmədovun, Yalçın Qəhrəmanovun – ümumilikdə 200-dən çox şəhidin şərəfli döyüş yollarını əks etdirən fotolar, sənədlər, geyimlər və şəxsi əşyalar yer alıb.

Muzeyin bələdçisi Günel Cəfərova sərgidə toplanan materiallarla bağlı məlumat verib. Sərgi digər təhsil ocaqlarında da nümayiş etdiriləcək.

# Mədəniyyət Nazirliyinin kollektivi Şəhidlər xiyabanını ziyarət edib

Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvarından 29 il ötdü. Sovet ordusunun həmin gün Bakıda Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixə düşüb.




1990-cı ilin 20 Yanvarı, eyni zamanda tariximizə qəhrəmanlıq səhifəsi kimi də daxil olub, xalqımızın milli müstəqillik uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Doğma yurdunun azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Şəhidlər xiyabanı xalqımızın müqəddəs ziyarətgahına çevrilib. 1990-cı ilin yanvar hadisələri zamanı həlak olmuş qəhrəman Vətən övladlarının xatirəsi hər birimiz üçün əzizdir. Hər il olduğu kimi, 20 Yanvarın 29-cu ildönümündə də Şəhidlər xiyabanına böyük insan seli axırdı, xalqımız qəhrəman övladlarının xatirəsini dərin ehtiramla yad etdi.

Yanvarın 20-də Mədəniyyət Nazirliyinin kollektivi, paytaxtın mədəniyyət ocaqlarının əməkdaşları da Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının ölməz ruhları qarşısında ehtiramlarını bildirdilər. Şəhidlərin xatirəsi yad edildi, məzarları önünə tər qərənfillər düzüldü.

Azərbaycan xalqı şəhidlərini heç vaxt unutmayacaq!

# Heydər Əliyev Sarayında şəhidlərin xatirəsi anılıb



Heydər Əliyev Sarayında 20 Yanvar – Ümumxalq Hüzn Gününün 29-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Tədbirdən öncə 20 Yanvar faciəsini əks etdirən kitab stendinə baxış olub. Sonra tədbir tamaşaçı zalında davam edib.

Heydər Əliyev Sarayının direktoru, Əməkdar mədəniyyət işçisi Fərhad Babayev çıxış edərək 1990-cı ilin 20 yanvarında baş verənlərin təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə insanlığa qarşı törədilmiş dəhşətli cinayət olduğunu bildirib. Fərhad Babayev 20 Yanvar hadisələrinin başvermə səbəbləri, SSRİ rəhbərliyinin dinc, əliyalın insanlara qarşı qırğın törətməsi, o cümlədən qadağan olunan silah və sursatlardan istifadə olunaraq uşaqların, qadınların, qocaların güllələbaran edilməsi haqqında ətraflı danışıb.

Digər çıxış edənlər Azərbaycan xalqına qarşı törədilmiş qanlı faciə haqqında söz açıb, bu günün Azərbaycanın müstəqilliyi uğrunda mübarizə tarixinin qəhrəmanlıq səhifəsi olduğunu vurğulayıblar.

Tədbir 20 Yanvar faciəsinin dəhşətlərini əks etdirən sənədli filmin nümayişi ilə yekunlaşıb.

# Nizami Kino Mərkəzində anım tədbiri

Yanvarın 20-də Nizami Kino Mərkəzində "Çarə sizsiniz" və "Əngəl sərhəd tanımaz" komandalarının birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə incəsənət nümayəndələri, könüllülər, fəal gənclər iştirak ediblər.



"Çarə sizsiniz" komandasının könüllüsü Ülviyyə Mütəllimova iştirakçılara Qanlı Yanvar faciəsi haqqında ətraflı məlumat verib.

Sonra eşitmə və danışma məhdudiyyətli gənclərlə birlikdə hazırlanmış və şəhidlərin əziz xatirəsinə həsr olunmuş videoçarx təqdim edilib.

"Çarə sizsiniz" və "Əngəl sərhəd tanımaz" komandalarının rəhbərləri Nur Ülviyyə Həsrətova və Həsən Məmmədov 20 Yanvar faciəsi haqqında danışıblar.

Sonda "Çarə sizsiniz" komandasının könüllüsü Günel Cəfərova şəhidlərin xatirəsinə ithaf etdiyi "Şəhid məktubu" şeirini söyləyib.

# Ədəbi-bədii kompozisiyalar təqdim edilib



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Ağaxan Abdullayev adına Mədəniyyət mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar "Qan yaddaşımız" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

Mədəniyyət mərkəzinin müdir müavini Aytən Nəsirova çıxışında bildirib ki, tarixdə bənzəri olmayan bu cür qəddarlıq və vəhşilik XX əsrin sonunda dünyanın gözü qarşısında baş verib, dinc, mülki əhali kütləvi qətliama məruz qalıb. Tədbirin bədii hissəsində 20 Yanvar faciəsi ilə bağlı şeirlər səsləndirilib.

* * *

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bibiheybət qəsəbəsindəki Mədəniyyət evində Səbail rayon MKS-nin 4 saylı filialı ilə birgə 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar "Şəhidlər qazilik nişanəmizdir" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

Tədbirdə 20 Yanvar faciəsi haqqında ətraflı məlumat verilib, videoçarx nümayiş olunub, şeirlər səsləndirilib.

# Bəşəriyyət bu tarixi unutmamalıdır

## 20 Yanvarın ildönümü müxtəlif ölkələrdə qeyd edilib

Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunmuş 20 Yanvarın ildönümü bu il də ölkəmizin hüdudlarından kənarda geniş şəkildə qeyd edilib. Müxtəlif ölkələrdəki diplomatik nümayəndəliklərimizin, diaspor təşkilatlarımızın təşəbbüsü ilə anım mərasimləri, sərgilər, musiqi axşamları keçirilib.

* * *

"Azərbaycan xalqı şəhidlərini heç zaman unutmayacaq. Bu, çox dəhşətli, təsəvvüredilməz hadisə idi... Çünki dövlət öz vətəndaşlarını tank altında qoyursa, bu, o deməkdir ki, bu cür dövlətdə yaşamaq olmaz! Yəqin bu səbəbdən də çox keçmədən Sovet İttifaqı dağıldı".



Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu fikirləri ölkəmizin Moskvadakı səfirliyində "Qara Yanvar"ın 29-cu ildönümünə həsr edilmiş tədbirdə səsləndirib.

Səfir eyni zamanda diqqətə çatdırıb ki, Azərbaycan xalqı və dövləti heç vaxt Sovet İttifaqının totalitar rejimi dövründə baş verənləri bugünkü demokratik Rusiya ilə eyniləşdirmir. Baxmayaraq ki, məsələni bu istiqamətə yönəltmək istəyənlər var.

Polad Bülbüloğlu Bakıda baş verən qanlı hadisələrin ertəsi günü, yanvarın 21-də Azərbaycan xalqının dahi oğlu, görkəmli siyasətçi Heydər Əliyevin ailə üzvləri ilə birlikdə Azərbaycan səfirliyinin indiki binasına (o vaxt burada Azərbaycan SSR-nin Moskvadakı daimi nümayəndəliyi yerləşirdi – red.) gələrək baş verən hadisələrə özünün qəti etirazını bildirməsindən danışıb. Səfir deyib: "O vaxt Sovet İttifaqında ali rəhbərliyin ünvanına kiminsə bir kəlmə belə deməyə cürəti çatmırdı. Bunu ilk dəfə Heydər Əliyev məhz bu binada etdi. Buna görə də biz bu barelyefi qurmuşuq və bu, Azərbaycan liderinin həmin cəsarətli addımını bizə xatırladır".

1990-cı ilin 20 yanvarı suveren Azərbaycanın tarixində əsas günlərdən biridir.

Bu fikri rusiyalı politoloq, publisist Qriqori Trofimçuk bildirib. Politoloq 1990-cı ilin 20 yanvar hadisələrinin Azərbaycanın gələcək tarixində əhəmiyyətini qeyd edərək deyib: "Mən özümün "Əlifba: Azərbaycanı kəşf edərkən" adlı kitabımda yazmışam ki, Mixail Qorbaçov Azərbaycan üçün ikinci Hitlerdir. Mən bu kitab üzərində işləməyə başlamazdan əvvəl Şəhidlər xiyabanını ziyarət etmişəm, əlimi şəhidlərin başdaşılarına sürtmüşəm. Məndə elə bir hiss var idi ki, sanki onlar o günlərin faciəli enerjisini özlərində saxlayırlar".

Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev vurğulayıb ki, həmin gecə Bakıda həlak olanlar müxtəlif millətlərin nümayəndələri, Sovet İttifaqının vətəndaşları idilər: "Onlar həmin gecə eyni amalla ədalətsizliyə qarşı etiraz etmək üçün çıxmışdılar. Əfsuslar olsun ki, bu dəhşətli fakta, SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun əməllərinə lazımi qiymət verilməyib".

Çıxışlardan sonra mərasim iştirakçıları səfirlik binasındakı 20 Yanvar şəhidlərinin xatirə barelyefi önünə qərənfillər düzüblər.

* * *

Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin ildönümü münasibətilə Paris yaxınlığındakı Sen-Klu qəbiristanlığında Əlimərdan bəy Topçubaşovun və Ceyhun Hacıbəylinin məzarları ziyarət edilib. Müstəqilliyimizin ilk nümayəndələrinin qəbirləri üzərinə əklil qoyulub.



Səfir Rəhman Mustafayev və UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri Anar Kərimov Qanlı Yanvarın ildönümündə Cümhuriyyət qurucularının qəbirlərinin ziyarət edilməsinin rəmzi məna daşıdığını bildiriblər.

Qeyd edilib ki, 20 Yanvar qəhrəmanları 100 il öncə əsası qoyulan müstəqilliyimizi bərpa etmək uğrunda həlak olublar.

* * *

Vyanada fəaliyyət göstərən "AZERİ-DER" Azərbaycan-Türk Mədəniyyət və İş Adamları Dərnəyinin qərargahında anım tədbiri keçirilib. Ölkəmizin Avstriyadakı səfirliyi ilə birgə təşkil olunan tədbirdə Azərbaycan və türk diasporlarının fəalları, yerli ictimaiyyətin nümayəndələri və tələbələr iştirak ediblər.

Səfir Qalib İsrafilov 20 Yanvar hadisələrinin tarixi barədə danışıb. Faciəyə həsr olunmuş sənədli film nümayiş olunub, şəhidlərin ruhuna ehsan süfrəsi açılıb.

Azərbaycan səfirliyi Avstriya Mətbuat Agentliyi vasitəsilə Qanlı Yanvar hadisələri ilə bağlı bəyanat yayıb.

* * *

Belçikanın Ham şəhərində ölkəmizin səfirliyi və Azərbaycan-Belçika Dostluq Cəmiyyəti tərəfindən anım mərasimi təşkil olunub. Səfir Fuad İsgəndərov, NATO yanındakı nümayəndəliyimizin rəhbəri Qaya Məmmədov və Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin rəhbəri Ayxan Dəmirçi 20 Yanvarın xalqımızın milli azadlıq mübarizəsinin şanlı səhifəsini təşkil etdiyini vurğulayıblar.

Ham şəhərinin meri Dirk De Vis çıxışında ölkələrimiz arasında mövcud dostluq əlaqələrini yüksək qiymətləndirdiklərini diqqətə çatdırıb.

Daha sonra əslən azərbaycanlı olan belçikalı rəssam Əli Seyranın 20 Yanvar faciəsinə həsr edilmiş əsərləri də daxil olmaqla, ölkəmizdən bəhs edən sərgisinə baxış keçirilib.

* * *

Azərbaycanın Britaniyadakı səfirliyi və Londonda fəaliyyət göstərən Azərbaycan Dostluq və Mədəniyyət Evinin təşkil etdiyi tədbirdə səfir Tahir Tağızadə 20 Yanvar faciəsi haqqında məlumat verib. Qeyd edilib ki, həmin dövrdə bir çox sovet ölkəsində oxşar hadisələr baş verib, lakin bunlardan ən qanlısı Bakıda törədilib.

Digər çıxış edənlər - Azərbaycan Evinin rəhbəri Əli Təkin Atalar, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri Nigar Maksvell sovet silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi və öz qəddarlığı ilə seçilən hərbi təcavüzdən söhbət açıblar.




Qanlı Yanvar hadisələrinə həsr olunmuş sənədli film nümayiş etdirilib. Mərasimdə şəhidlərimizin əziz xatirəsinə tarda ifalar səsləndirilib.

* * *

Özbəkistanın uchildiz.uz portalı "20 Yanvar – Azərbaycan xalqının vətənpərvərlik və qəhrəmanlıq günü" sərlövhəli məqalə yayıb. Məqalədə bildirilir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş SSRİ-nin rəhbəri Mixail Qorbaçovun əmri ilə Bakıya qoşun yeridilib, günahsız insanlar qətlə yetirilib. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq mübarizəsinin rəmzi kimi tarixə düşüb. Həmin gecə canlarını qurban verən şəhidlər öz qanları ilə Azərbaycan tarixinin yeni səhifəsini yazıblar.

* * *

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində "20 Yanvar gənclərin gözü ilə" adlı tədbir keçirilib. Gürcüstanın müxtəlif universitetlərində təhsil alan tələbələr tərəfindən hazırlanmış tədbir Azərbaycanın Gürcüstandakı səfirliyinin və M.F.Axundzadə adına muzeyin dəstəyi ilə reallaşıb.

İştirakçılar AZƏRTAC-ın təşəbbüsü ilə 20 Yanvar faciəsi ilə əlaqədar muzeydə açılmış fotosərgi ilə tanış olublar.

Muzeyin elmi işçisi Leyla Əliyeva Gürcüstanda hər il 20 Yanvar faciəsi ilə əlaqədar anım tədbirlərinin keçirildiyini diqqətə çatdırıb. 20 Yanvar şəhidlərinin və 1989-cu ilin 9 aprelində Tbilisidə sovet qoşun hissələri ilə toqquşmada həlak olanların xatirəsi ehtiramla yad edilib.

* * *

Mərakeşin "Əl-Aləm" qəzetində "20 Yanvar - Azərbaycan milli qürur günüdür" başlıqlı məqalə dərc edilib. Məqalədə 20 Yanvar tarixinin Azərbaycan xalqının milli yaddaşına 1990-cı ildə keçmiş sovet ordusunun ölkəyə qarşı hərbi təcavüzü kimi yazıldığı qeyd olunur. Yazıda sovet ordusunun Bakıda və ölkəmizin digər şəhər və rayonlarında törətdiyi qanlı hadisələrdən bəhs edilir.

* * *

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) 20 Yanvar faciəsi ilə bağlı bəyanat yayıb. Bəyanatda İSESCO katibliyi Azərbaycan xalqının acısını bölüşdüyünü diqqətə çatdırır. 20 Yanvar hadisələrinin insanlığa qarşı törədilmiş cinayət olduğu vurğulanır.



Həmçinin sənəddə dünya ictimaiyyətinə və beynəlxalq insan haqları təşkilatlarına faciəyə hüquqi qiymətin verilməsinə, bu cinayəti törətmiş şəxslərin beynəlxalq hüquqa uyğun olaraq cəzalandırılmasına çağırış edilib.

* * *

Azərbaycanın İrandakı səfirliyində 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib. Səfir Bünyad Hüseynov 1990-cı il yanvarın 20-də baş verən hadisələrin siyasi mahiyyəti haqqında məlumat verib.

Səfirlik tərəfindən Azərbaycan, fars və ingilis dillərində hazırlanmış press-reliz və bu faciəni əks etdirən fotoşəkillər İranda akkreditə olunmuş diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatların Tehrandakı təmsilçilərinə, eləcə də kütləvi informasiya vasitələrinə göndərilib. "Asiya" qəzetində və "Asiya news" informasiya portalında "20 Yanvar azadlıq uğrunda mübarizənin rəmzidir" sərlövhəli məqalə dərc edilib.

* * *

İsveçdə fəaliyyət göstərən "İsveç-Azərbaycan Mədəniyyət Dərnəyi Odlar Yurdu" diaspor təşkilatı 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbir keçirib.

Diaspor təşkilatının rəhbəri Sevinc Bakılı çıxış edərək qanlı tarixin həm şəhidlərimizin anım günü, həm də xalqımızın birliyi, fəxr və şərəf günü olduğunu qeyd edib. Sonra 20 Yanvar hadisələri ilə bağlı təşkilat adından hazırlanan bəyanat tədbir iştirakçılarına təqdim edilib.

* * *

İsveçrənin paytaxtı Berndə fəaliyyət göstərən "Qarabağ" Azərbaycan məktəbində 20 Yanvar faciəsinin 29-cu ildönümü qeyd edilib. Azərbaycan səfirliyinin təşkilatçılığı və Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən tədbirdə şagirdlərə Bakı şəhərində törədilmiş qanlı faciə ilə bağlı məlumat verilib, onlara 20 Yanvar haqqında əyani vəsaitlər təqdim edilib. Məktəblilər şəhidlərə həsr olunan şeirlər söyləyiblər.

* * *

Azərbaycanın İtaliyadakı səfirliyi tərəfindən 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Səfir Məmməd Əhmədzadə çıxış edərək ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından irəli gələn gərgin proseslərdən danışıb, Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi olan 20 Yanvar faciəsinin acı nəticələri barədə məlumat verib.

Roma Sapienza Universitetinin dosenti Daniel Pommier çıxışında 20 Yanvar faciəsindən danışıb, belə hadisələrin xalqın milli kimliyinin formalaşmasında rolundan söz açıb.

Sonda Qanlı Yanvar faciəsinə dair sənədli film nümayiş olunub.

# Türkiyədə 20 Yanvar qurbanlarının xatirəsi anılıb

Hər il olduğu kimi, bu il də qardaş Türkiyədə 20 Yanvar faciəsinin qurbanları müxtəlif tədbirlərlə anılıb.

Yanvarın 18-də Ankara Universitetinin Hüquqşünaslıq fakültəsində keçirilən tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, fakültənin dekanı Muharrem Özen çıxış ediblər.

Tədbir iştirakçıları faciəni əks etdirən fotosərgi ilə tanış olublar. 20 Yanvar faciəsi ilə bağlı sənədli film nümayiş etdirilib.

* * *

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar İstanbul metrosunun "Yeniqapı" qovşağında "Qanlı Yanvar" adlı fotosərgi təşkil edilib. Azərbaycanın İstanbuldakı baş konsulluğunun təşəbbüsü ilə ərsəyə gələn sərgidə 20 Yanvar faciəsinin dəhşətlərini əks etdirən fotolar nümayiş olunub.

Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev sərgi barədə danışaraq 20 Yanvarın ölkəmizin müstəqilliyi yolunda dönüş nöqtəsi olduğunu deyib.

* * *

İstanbuldakı Türkiyə-Azərbaycan Dərnəyində də (İSTAD) 20 Yanvar qurbanlarının xatirəsi anılıb. Tədbirin aparıcısı sosial elmlər üzrə tədqiqatçı, yazıçı-tərcüməçi Mətin Yıldırım, dərnəyin sədri Səfər Qaraqoyunlu 20 Yanvar faciəsi barədə məlumat veriblər.

Tədbirdə Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, professor Adil Allahverdiyev, Azərbaycanın İstanbuldakı baş konsulluğunun əməkdaşı Xəyyam Daşdəmirov və başqalarının çıxışları dinlənilib. Sonda 20 Yanvar faciəsini əks etdirən videoçarx nümayiş olunub.

* * *

İstanbul Universitetində Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi və "Hazarfem" Azərbaycan-Türkiyə dostluq cəmiyyətinin birgə təşkilatçılığı ilə "Qanla qazanılmış müstəqillik: 20 Yanvar Bakı qətliamı" adlı tədbir keçirilib.

Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin başqanı Rəşid Həsən Mustafazadə, "Hazarfem" Azərbaycan-Türkiyə dostluq cəmiyyətinin rəhbəri Nuran Acar çıxış ediblər. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, professor



Aygün Attarın mövzu ilə əlaqədar məruzəsi dinlənilib.

**Mehparə SULTANOVA**
**Ankara**



# 1990-da Bakıda, 1991-də Riqada...

1990-cı ilin 20 yanvarında Bakıda, bir il sonra həmin gün Riqada törədilmiş 20 Yanvar faciələri ilə əlaqədar Azərbaycanın Latviyadakı səfirliyi və Riqada yerləşən Barrikada Muzeyinin təşkilatçılığı ilə birgə anım tədbiri keçirilib.

Əvvəlcə hər iki şəhərdə sovet qoşunları tərəfindən törədilmiş Yanvar faciəsindən bəhs edən sənədli film nümayiş etdirilib.

Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov Bakıda törədilmiş 20 Yanvar faciəsinin canlı şahidi olduğunu qeyd edərək hər iki ölkədə baş vermiş oxşar faciələri yaddaşlarda qanla yazılmış azadlıq günü kimi dəyərləndirib.

Vurğulayıb ki, həmin hadisələrdə tankların qarşısına əliyalın çıxan xalq əzmini nümayiş etdirib, bu təcavüz aktı Azərbaycan xalqının milli azadlıq uğrunda əzmini qıra bilməyib.

Barrikada Muzeyinin direktoru Renars Zalais Azərbaycanda törədilmiş 20 Yanvar faciəsinin 1991-ci ildə Riqada baş verən hadisələrlə oxşarlıq təşkil etdiyini bildirib. 20 Yanvar tarixinin hər iki xalqı birləşdirdiyini qeyd edən direktor bu tarixin hər iki ölkədə azadlıq və demokratiyanın müdafiəsi naminə həlak olanların xatirəsinin anım günü olduğunu söyləyib.

Latviya xalq hərəkatının 1990-1992-ci illərdəki rəhbəri, tanınmış ictimai-siyasi xadim Romualds Razuks çıxış edərək o vaxt yaradılmış informasiya blokadası səbəbindən Azərbaycandakı hadisələrdən az məlumatlı olduqlarını vurğulayıb.

Latviya Prezidentinin etnik azlıqlar üzrə müşaviri Roman Əliyev də çıxış edərək ötən əsrin son onilliyində baş vermiş və tarixə Qara Yanvar kimi düşmüş həmin günü Azərbaycan və latış xalqlarının bənzər azadlıq mübarizəsi adlandırıb.

Sonra hər iki ölkədə baş vermiş faciə qurbanlarının xatirəsinə ehsan süfrəsi açılıb.

№6 (1591)
23 yanvar 2019
www.medeniyyet.az

## Tariximizin qəhrəmanlıq salnaməsi

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) "20 Yanvar: Azərbaycanın qəhrəmanlıq salnaməsi" mövzusunda dəyirmi masa keçirilib.

Rektor İlham Mədətov 1990-cı il yanvarın 20-nə keçən gecə totalitar sovet rejiminin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qırğın haqqında danışıb. O, keçmiş sovet rəhbərliyinin Azərbaycanda törətdiyi hərbi-siyasi cinayətin beynəlxalq aləmə çatdırılmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib.

İctimai fənlər kafedrasının müdiri, dosent İbrahim Əliyev, professor Məhərrəm Zülfüqarlı 20 Yanvar faciəsi ilə bağlı məruzələrlə çıxış ediblər. Diqqətə çatdırılıb ki, Qanlı Yanvar hadisələrinə siyasi-hüquqi qiymət ulu öndərin siyasi hakimiyyətə qayıtmasından sonra verilib.

Qeyd edək ki, 20 Yanvar faciəsinin ildönümü ilə bağlı ATMU-da filmlər nümayiş olunub.

## Uşaq ədəbiyyatının təbliğində əməkdaşlıq

AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov Türkiyənin Uşaq və Gənclik Ədəbiyyatı Yazarlar Birliyinin rəhbəri Bican Veysəl Yıldız ilə görüşüb.

Görüşdə birliyin təşəbbüsü ilə hər il Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq simpoziumun bu dəfə Bakı şəhərində təşkili, uşaq folklorunun, ədəbiyyatının təbliği ilə bağlı məsələlər müzakirə edilib. AMEA Folklor İnstitutu ilə Uşaq və Gənclik Ədəbiyyatı Yazarlar Birliyi arasında əməkdaşlığın əsası qoyulub. Hər iki tərəf ümumtürk uşaq ədəbiyyatının toplanıb, tanıdılması istiqamətində birgə fəaliyyətin önəmini vurğulayıb.

Uşaq və Gənclik Ədəbiyyatı Yazarlar Birliyi illərdir uşaqların təlimi, tərbiyəsi, uşaq folkloru, uşaq ədəbiyyatı ilə bağlı beynəlxalq tədbirlər həyata keçirir.

**S.QALİBOĞLU**

# Avey qoruğundakı Damcılı mağara düşərgəsinə yeni yol çəkilir

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildən Qazax rayonundakı "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun "Damcılı" filialında yaponiyalı və azərbaycanlı alimlərin iştirakı ilə beynəlxalq ekspedisiya fəaliyyət göstərir. Müvafiq memorandum Mədəniyyət Nazirliyi tərəfindən "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya tərəfindən Tokio Universiteti arasında bağlanıb.



Beynəlxalq ekspedisiyanın işlədiyi müddət ərzində mühüm nəticələr əldə edilib. Qobustandan sonra Damcılı mağara düşərgəsinə Mezolit dövrü təbəqəsinin aşkar edilməsi, bu dövrə aid maddi mədəniyyət nümunələrinin, qiymətli tapıntıların əldə edilməsi ərazinin ən qədim yaşayış düşərgəsi olmasını bir daha sübut edir.

Mədəniyyət naziri Əbülfəs Qarayev ötən il qoruq ərazisində aparılan arxeoloji işlərlə, qazıntılar zamanı əldə edilmiş tapıntılardan ibarət sərgi ilə tanış olarkən qoruğun gələcək fəaliyyətinin daha da gücləndirilməsi, araşdırmaların davam etdirilməsi istiqamətində tapşırıq və tövsiyələrini vermişdi.

Həmçinin burada mədəniyyət nazirinin, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun, yaponiyalı və azərbaycanlı mütəxəssislərin iştirakı ilə Damcılı qədim yaşayış düşərgəsinin gələcək perspektivləri, infrastrukturu və s. ilə bağlı fikir mübadiləsi aparılmış, o cümlədən ərazinin abadlaşdırılması, yeni yolun çəkilməsinin vacibliyi vurğulanmışdı. Onu da qeyd edək ki, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Avey qoruğunun inkişafı ilə bağlı müvafiq təkliflər hazırlayıb.

Eyni zamanda ekspedisiyanın işlədiyi müddətdə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bir neçə dəfə ərazidə olmuş və ekspedisiyanın mövcud iş şəraitini yaxşılaşdırmaq, Damcılıya gələn turistlərin yolunu abadlaşdırmaq üçün avtomobil meydançasının 200 kvadrat metrlik sahəsinə asfalt döşənmişdi. Nazirin iştirakı ilə keçirilən həmin görüşdə icra başçısı Bakı-Qazax-Tbilisi magistral yolunu Daş Salahlıya birləşdirən hissəsinin asfaltlanacağını bildirərək bu yolun daha 3 km – dünya əhəmiyyətli abidə olan Damcılıya qədər uzadılmasını təklif etmişdi.

Bu günlərdə rayon İcra Hakimiyyətinin dəstəyi ilə həmin işlərə başlanılıb. Daş Salahlı–Ürkməzli–Dəmirçilər kənd yolunun yenidən qurulması layihəsinə ilk olaraq qoruğun "Damcılı" filialından start verilib. Qoruqla Daş Salahlı kəndini birləşdirən 3 km yola asfalt örtüyü çəkilir.

Bundan əlavə, rayon İcra Hakimiyyətinin başçısı Göyəzən dağına ətrafın yaşıllaşdırılması və daha çox turistin cəlb edilməsi məqsədilə suyun çəkilməsi üçün müvafiq qurumlara tapşırıq verib.

# Bakıda alman memarlarının izləri

## Adolf Eyxler 20 illik peşə fəaliyyətində bir çox tikililərin layihəsini hazırlayıb



əvvəli səh. 1-də

### Şəxsi mülklər, ictimai binalar

Adolf Eyxler Peterburqda təhsil almışdı. XIX əsrin 90-cı illərində memar kimi fəaliyyətə başladığı dövrdə Bakıda antisanitariya vəziyyətinin hökm sürdüyü bəzi karvansaraların bağlanmasına və zibilliklərin ləğvinə nail olmuşdu. Onun layihəsi üzrə ilk bina Bakının köhnə məhəllələrindən birində - Murtuza Muxtarov (keçmiş Persidski) və Çingiz Mustafayev (o zamankı Suraxanski) küçələrinin kəsişməsində 1892-ci ildə inşa edilib. Uzun müddət məktəb binası kimi fəaliyyət göstərən tikili kifayət qədər geniş ərazini əhatə edir. Eyxlerin üslubuna xas olan memarlıq ciddiliyi bu binada da özünü əks etdirir. O həm şəxsi evlərin, həm də dini məbədlərin layihəsini verib. Memar 1904-cü ildə təmənnasız olaraq uşaqlar üçün internat məktəbini də layihələndirib.



Ümumiyyətlə, Eyxlerin layihələndirdiyi mülklərə diqqət edərkən onların ümumi bir qanunauyğunluğa malik olduğunu görürük. Memarın şəxsi mülk üzrə işləri o qədər də dəbdəbəli olmayıb. Daha çox orta səviyyəli tacirlər və şəhər sakinləri ona sifarişlər verib. Zərgərpalan 135 ünvanında yerləşən birmərtəbəli mülk də Eyxlerin layihəsi əsasında 1902-ci ildə inşa edilib. 1893-cü ildə Bakının tanınmış tacirlərindən Hacı Məhəmməd İbrahim Hacı Mehdi oğlu Eyxlərə sifariş verir. Bu mülk indiki Azərbaycan prospekti və Təbriz Xəlilbəyli, Dilarə Əliyeva küçələrinin kəsişməsində yerləşir. Bina özünəməxsus minimal naxışlarla bəzədilib. Mülkün üzərində onun 1894-cü ildə tikildiyi qeyd olunub. Həmin ildə memarın sifariş aldığı daha bir villa tipli bina Bakının qədim tikililəri sırasında yer alır. Bina Bakının qədim küçələrindən sayılan keçmiş M.Qorki (indiki Mirzə İbrahimov) və Süleyman Rəhimov küçələrinin kəsişməsində inşa edilib. Tikili üzərində çox az sayda naxış və ornament istifadə olunmaqla layihələndirilib. Binanın S.Rəhimov küçəsinə baxan hissəsində günəş simvolundan istifadə olunub.

Bakı milyonçularından Dadaşovlara məxsus olan və 3 küçəni əhatə edən möhtəşəm ikimərtəbəli mülkün layihə müəllifi də Eyxlerdir. Bina indiki Nizami, Zərgərpalan və Nigar Rəfibəyli küçələrində yerləşir. XX əsrin əvvəllərində inşa edilən binanın eyvanlarının quruluşunda Avropa memarlığının təsiri diqqəti cəlb edir. Hazırda Daxili İşlər Nazirliyinin arxa küçəsində yerləşən və üç küçəyə açılan bu əzəmətli mülk Eyxlerin ən uğurlu işlərindən hesab olunur.



Görkəmli memarın ərsəyə gətirdiyi möhtəşəm binalar arasında Sabunçu qəsəbəsinin mərkəzi küçəsində yerləşən və 1901-ci ildə inşa edilən Bəşir bəy Aşurbəyova məxsus mülk də var. Bu mülk şəhərdəki mülklərdən xeyli fərqlənir. Üzərindəki bəzəkləri, naxışları və üslubu ilə bənzərsiz bir memarlıq abidəsidir.

### İbadət ocaqları

Eyxlerin layihələndirdiyi ən möhtəşəm binalardan biri isə Bakıdakı alman-lüteran kilsəsi (kirxa) və onun qarşısındakı qoşa binalardır. Hazırda burada Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalı fəaliyyət göstərir.

Ərazi 1877-ci ildə Eyxlerin əmisi üçün dini məbəd tikilmək məqsədilə ayrılsa da, məsələ xeyli müddət uzanır. 1886-cı ildə Bakı Şəhər Dumasında lüteran kilsəsinin tikilməsinə icazə verilir. Kilsə 1896-1899-cu illərdə Bakının alman icmasından toplanan ianə əsasında Adolf Eyxlerin layihəsi əsasında neoqotika üslubunda inşa edilib. Kirxanın təməlqoyma mərasimində Nobel qardaşları və ailəsi də iştirak etmişdi. Çünki maliyyənin əsas hissəsini bu ailə ödəmişdi. İlkin sifarişə əsasən, kirxanın arxitekturası 1854-cü ildə Göygöldə ucaldılan lüteran kilsəsinin tam oxşarı olmalı idi. Eyxler bununla razılaşmır və Almaniyanın Malburq şəhərindəki kilsənin modelini əsas tutur, ona əlavələr edərək yeni layihə hazırlayır. Kirxa bu gün paytaxtımızın tarixi tikililəri sırasında özünəməxsus yer tutur.

Kirxanın ətrafındakı iki binada isə din xadimləri yaşayıblar. 1930-cu illərin repressiya dalğası bu insanlardan yan keçməyib. 1937-ci ildə burada yaşayan kahinlər və ailələri bolşeviklər tərəfindən güllələnib. Əgər Adolf Eyxler memar kimi Bakıda heç bir bina tikməsəydi belə, təkcə iki tikiliyə görə tarixə düşə bilərdi. Bunlardan biri kirxa, digəri isə 1895-ci ildə Bakı milyonçusu Hacıbaba Haşımovun Eyxlerə sifariş verdiyi məscid idi.

1896-cı ildə Bakının dağlıq hissəsində, hündür bir ərazidə, füsunkar mənzərəsi şəhərə açılan yerdə məscid inşa edilir. Adolf Eyxler alman olsa da, Bakı mühitinə çox gözəl bələd idi. Onun Azərbaycan memarlığına dair mükəmməl biliklərə sahib olması bu tikilidə özünü aydın şəkildə əks etdirir. Şirvanşahlar dövrünün memarlıq üslubu və Abşeron məscidlərinin interyerinə uyğun qurulan bu məscid hazırda "İmam Hüseyn" məscidi kimi tanınır. Onu da bildirək ki, 2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə bu ibadət məkanında əsaslı təmir işləri aparılaraq dindarların istifadəsinə verilib.

* * *

...1911-ci il fevralın 5-i səhər saat beş radələrində Eyxlerlərin mənzilində atəş səsi eşidildi. Ertəsi gün qəzetlər memarın 42 yaşında intiharından yazırdı. İntiharın motivləri isə daha sonra bəlli olacaqdı. Adolf Eyxler çiçək xəstəliyindən əziyyət çəkirdi və əzablara dözməyərək canına qıymışdı. O, şəhərin dağlıq hissəsində yerləşən lüteran qəbiristanlığında torpağa tapşırıldı.

**Lalə AZƏRİ**

# "Əncüməni-şüəra" ədəbi məclisinin yetirməsi

XIX yüzillikdə Məhəmməd Tağı Sidqinin rəhbərliyi ilə Ordubadda fəaliyyət göstərən "Əncüməni-şüəra" ədəbi məclisinin tanınmış üzvlərindən biri də Hüseyn Nadim Naxçıvanidir.

Hüseyn Abdulla oğlu Mehdiyev (Nadim) 1871-ci ildə Naxçıvanın Nehrəm kəndində anadan olub. Mollaxanada və Cəlil Məmmədquluzadənin dərs dediyi məktəbdə oxuyur. Atası vaxtsız vəfat etdiyindən təhsilini davam etdirə bilmir. Şəxsi mütaliə ilə savadını artırır. Ərəb və fars dillərini öyrənir, Şərq ədəbiyyatını, klassik Azərbaycan poeziyasını mənimsəyir.

Nehrəm kəndində kiçik çayxana açır. Bu çayxana həm də şeir-sənət adamlarının toplaşdığı məkana çevrilir. Culfadan, Ordubaddan ədəbiyyat həvəskarları onunla səmimi münasibət qururlar. O, tez-tez Ordubada gedib ədəbi məclislərdə iştirak edir.

"Əncüməni-şüəra" ədəbi məclisində Hacağa Fəqir, Məhəmməd Tağı Sidqi, Molla Hüseyn Bikəs, Usta Zeynal Nəqqaş kimi ustad sənətkarlar təmsil olunurdular. Sözsüz ki, onların Nadimin yaradıcılığına təsiri var idi. Bundan əlavə, şairin əsərlərində Bakı və Qarabağ ədəbi mühitinin də təsiri aydın duyulur. Bu da onu göstərir ki, XIX-XX əsrlərdə Azərbaycanda fəaliyyət göstərən ədəbi məclislərin bir-biri ilə sıx əlaqələri olub.

Tədqiqatçı alim Nəsrəddin Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" kitabında yazır ki, ömrünün son illərində Hacağa Fəqirin gözləri tutulur. Bu zaman onun dediyi şeirləri dostu Sidqi yazıb toplayır. Məclis üzvlərindən Bikəs və Nadim də bu işdə ona yardımçı olurlar...

Hüseyn Nadimin yaradıcılığında klassik üslubda yazdığı aşiqanə-lirik qəzəllərlə yanaşı, dini-ictimai motivli bədii nümunələr də əsas yer tutur. Vətən dərdi, millətin taleyi, din və əqidə təəssübkeşliyi, insaf və ədalət axtarışları şairin qəzəllərinin əsas qayəsini təşkil edir:

*Yox bircə kəs xilas edə*
*bu nardən bizi,*
*İmdad edən yoxdu*
*bu biçarə millətə...*

*Mən Nadiməm, zəmanədə*
*millət cünuniyəm,*
*Ağlar gözüm həmişə*
*bu biçarə millətə!*

Hüseyn Nadim klassik şairlərimizdən ən çox dahi Füzulinin yaradıcılığına, ideyalarına vurğun olub. Kərbəla ziyarətində olarkən Füzulinin məzarını ziyarət edib, məqbərəsi önündə şairə müraciətlə bir qəzəl yazıb:

*Füzuli, dur əyağə,*
*qəmə giriftarəm, ağlaram,*
*Dəstgirəm sənüntək*
*ruzgardə xarəm, ağlaram.*

*Qəbrün üstə baş əydim, qüssədən*
*qanla dolub könlüm,*

*Solub gülistandə güllərim,*
*səntək zarəm, ağlaram.*

Şairin qəsidələri, növhə və sinəzənləri, satiraları onun ədəbi zövqünün zənginliyindən xəbər verir. Ədəbi irsinin çox hissəsi itib-batdığından əldə olan şeirləri əsasən növhə və sinəzənlərdən ibarətdir.

Şairin oğlu Məhəmməd Abdullayev xatirələrində yazır: "Atamın şəxsi kitabxanasında Nizaminin farsca əsərləri, Qumrunun, Racinin kitabları vardı. Lakin atamın vəfatından sonra 1930-cu illərdə ərəb əlifbası ilə yazılan kitabları evlərdə saxlamaq qadağan edildi. Bu səbəbdən o kitabları yandırdıq. Çox güman ki, atamın əsərləri də elə o zaman itib-batdı. Sonralar dini şeirlərini və qəzəllərinin bir qismini tapıb Əlyazmalar Fonduna verdim".

1918-1920-ci illərdə daşnak Andronikin başçılığı ilə erməni quldur dəstələrinin Naxçıvana, şairin doğma kəndi Nehrəmə və Ordubada hücumu zamanı yaradılan müdafiə dəstələrində Hüseyn Nadim də vuruşub, Ordubadın Ələngəz dağı ətrafında gedən döyüşlərdə ağır yaralanıb. Şair 1927-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**



# Qusar teatrında "Əsir qadın"ın tamaşası

Qusar Dövlət Ləzgi Dram Teatrında Meyxoş Abdullahın eyniadlı romanı əsasında səhnələşdirilmiş "Əsir qadın" tamaşası nümayiş olunub.

Azərbaycanın Əməkdar mədəniyyət işçisi və Dağıstanın Əməkdar artisti Laləzar Hüseynovanın quruluş verdiyi tamaşada hadisələr Qarabağ döyüşləri zamanı baş verir.

Səidə əsir düşdükdən sonra ermənilər onun gözünün qarşısında həyat yoldaşı Əlini və oğlu Ruslanı öldürürlər, özü digər əsirlərlə birlikdə işgəncələrə məruz qalır. Bütün bu əzablara dözən Səidə bir gün ermənilərdən qisas alacağı günü gözləyir və düşmən zabitini sirkə turşusu ilə yandırır...



Premyerada əsərin müəllifi də iştirak edib. Maraqla qarşılanan səhnə əsərində rollarda Kifayət Yusifova, Bağır Əhmədov, Kəmalə Səfərova, Tofiq Mustafayev, Aysel Qiyasova, Namiq Mustafayev, Həsrət Nəsrullayev, Lalə Qurbanova çıxış edir.

## Qocaman tamaşalar

# Hər şeydən öncə “Qarabağnamə”



İllərlə adı afişadan düşməyən, 10-20 ildən çox repertuarda qalan, seyrçi cəlb edən tamaşanı həm də qocaman tamaşa hesab etmək olar. Çağdaş Azərbaycan teatrında tamaşaçı probleminin nə qədər aktual olduğunu qeyd etməklə yanaşı, paytaxt teatrlarında (yaxşı axtarsaq, bölgələrdə də) belə uzunömürlü tamaşalar tapmaq mümkündür.

“Qocaman tamaşalar” rubrikasında ilk olaraq yolumuzu ana teatrdan – Azərbaycan Dövlət Akademik Milli Dram Teatrından salmışıq. Bu silsilədən ilk yazımız iyirmi üç ildən bəri teatrın repertuarında olan Xalq yazıçısı İlyas Əfəndiyevin “Qarabağnamə” (ilk quruluşda adı: “Hökmdar və qızı”) ikihissəli faciəsidir. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, səhnə tərtibatçısı Əməkdar rəssam, mərhum İsmayıl Məmmədovdur.

“Qarabağnamə” teatrın repertuarına daxil olandan bəri kollektiv bütün mövsümləri onunla başlayıb onunla bitirir. Hər il 20 yanvar, 26 fevral, 31 mart, 8 may kimi hüznlü günlərimizdə də, Azərbaycanın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinə ehtiram əlaməti olaraq oynanılır.

İlk tamaşası 1996-cı il dekabrın 14-də oynanılmış “Hökmdar və qızı” tamaşası görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin sonuncu pyesidir. Bu əsər həm də dramaturqun sağlığında hazırlanmış, lakin premyerasını görmək ona qismət olmayan yeganə səhnə əsəridir.

... Teatra elə yanvarın 20-də, “Qarabağnamə” oynanılan gün, amma tamaşadan xeyli əvvəl gəlmişik. Gəlmişik ki, quruluşçu rejissorla, tamaşanın iştirakçıları ilə söhbət edək. Çox istəyirik ki, tamaşanın əsas qəhrəmanlarından biri – Ağabəyim ağa rolunun ifaçısı Əməkdar artist Məsmə Aslanqızı ilə söhbət edək, amma aktrisa danışmaq istəmədiyini deyir, biz də günün hansı gün olduğunu bildiyimizdən çox da bərkini tutmuruq. 20 Yanvar faciəsinin acısını bir toplum olaraq nə qədər çox hiss etsək də, bu acını həmin məşum gecə əzizini itirənlərin çəkdiyi qədər yaşaya bilmərik. O gecə  balaca qız ikən atasını itirmiş Məsmə xanım da ömrünün sonunadək o itkini yaşamağa məhkumdur...

Tamaşanın başlanmasına az qalıb. Səhnəyə ilk çıxacaq iştirakçılar hazırdırlar, kişilərin tamaşa boyu dəyişəcəkləri çuxalar, arxalıqlar asılqandan asılıb, qadınların libasları isə əlbəsə otağında geyim növbəsini gözləyir. **Əməkdar artist Kazım Abdullayev** də səhnəyə çıxmağa hazırdır. Əsərin baş qəhrəmanı pərdə açılan kimi səhnəyə hər kəsdən öndə daxil olacaq. “Qarabağnamə”nin İbrahim xanı məmnuniyyətlə öz fikirlərini bizimlə bölüşür:

- Saday bəy tarixi obrazdır. Lakin o, əsilzadə yox, tərəkəmədir. Qarabağ xanının ailəsini xilas etdiyinə, igidliyinə görə İbrahim xan ona bəylik verir. 1996-cı ildə bu rol mənə tapşırılanda cavan, sıravi aktyor idim, indisə Xalq artistiyəm. Təbii ki, bu yaşımda gözəl Ağabəyim ağanın da vurulduğu sədaqətli igid oğlan kimi deyiləm, bu gün mənim öz obrazıma münasibətim də fərqlidir. Səhnədə canlandırdığım Saday bəy mənim üçün Qaradağ igidlərinin ümumiləşdirilmiş bədii obrazıdır.

Sabir müəllim səhnə arxasına tələsir. O da pərdə açılan kimi səhnədə olacaq.

Əsərdəki ən qəliz obrazlardan birinin – erməni Vanya yüzbaşı rolunun ifaçısı, **Xalq artisti Əjdər Həmidovun** teatr dililə desək, tamaşadakı yerinə hələ var. Əslində, bu sətirlərin müəllifi çoxları kimi elə zənn edirdi ki, Əjdər müəllim “Qarabağnamə”yə sonradan daxil olub. Çünki ilk tamaşalarda, həmçinin səhnə əsərinin televiziya üçün lentə alınmış videoyazısında da Vanyanı mərhum sənətkarımız, irili-xırdalı bütün obrazlara özünəməxsus ştrixlər artırmağı bacaran Xalq artisti Səyavuş Aslan ifa edirdi. Amma demə, həqiqət heç də biz bilən kimi deyilmiş:

- “Hökmdar və qızı”nın ilk rol bölgüsündə Vanya yüzbaşı rolu mənə verilmişdi. Sonradan Səyavuş Aslan da tamaşaya daxil oldu. Tamaşanın ictimai baxışında, premyerasında, hətta təxminən bir il Səyavuş müəllim bu rolda səhnəyə çıxdı. Amma artıq onun səhhəti pisləşmişdi deyə, özü roldan imtina etdi, beləliklə, Vanya yüzbaşı qaldı təkcə mənim öhdəmdə.

İhsan Doğramacı ilə birlikdə “Hökmdar və qızı” tamaşasına baxdı, əsər haqqında qiymətli fikirlərini söylədi. Elə onun tövsiyəsi və İlyas Əfəndiyevin xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar imzaladığı sərəncamla bu pyes əsasında “Hökmdarın taleyi” bədii filmi çəkildi.

**- Əsərə ikinci dəfə quruluş vermək zərurəti nədən yarandı? Bildiyim qədər, “Qarabağnamə” tamaşasında elə bir ciddi dəyişiklik yoxdur.**

- Tamaşa canlı orqanizmdir. Aktyorların bəzisi yaşlaşdı, bir neçəsi vəfat etdi. 2010-cu ildə hesab etdim ki, əsərin yeni quruluşda səhnəyə çıxmasına ehtiyac var. Cüzi səhnə redaksiyası ilə əsəri yenidən hazırladıq, 2011-ci il martın 10-da təhvil verdik. Başqa dəyişikliyə ehtiyac yoxdu: Qarabağ dərdimiz həmənkidir, hələ də şəhidlərimizin qanını almamışıq.

**- Rejissordan hansı tamaşanı çox bəyəndiyini soruşmaq anaya verilən hansı övladını daha çox sevirsən sualına bənzəyir...**

- Elədir. Tamaşanın ideyası, iştirakçıların öz rollarına münasibəti dəyişməsə də, fərqlər var. Məsələn, Bəsti xanımın Ağabəyimi ilə Məsmə xanımın Ağabəyimi tam fərqlidir. Çünki aktyorların da öz ifa tərzi var. Mən də çalışdım ki, ikinci quruluşda, xüsusilə də finalda Azərbaycanın Qarabağ uğrunda savaşdan çəkinməyəcəyi, doğma torpaqlarımıza qayıtmaq ideyası daha qabarıq səslənsin.





- Mən 2004-cü ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çalışıram. Mərhum Əliabbas Qədirov 2006-cı ildə vəfat edənədək İbrahim xan rolunda çıxış etmişdi. Heç gözləməzdim ki, Əliabbas müəllimdən sonra mərhum İlham Əsgərovla yanaşı mənə də İbrahim xanı oynamağı həvalə edərlər. İlhamın sağlığında biz bu tamaşada növbə ilə çıxış edirdik. Əslində, bütün hallarda hazır tamaşaya sonradan daxil olmaq aktyor üçün çətindir, üstəlik, mən də o zaman teatrda təzə adam idim. Görünür, quruluşçu rejissorun, kollektivin inamını doğrultduğum üçün “Hökmdar və qızı” ikinci dəfə “Qarabağnamə” kimi hazırlanarkən yenidən İbrahim xanı oynamalı oldum.

Azərbaycanın başına gələn bütün bəlaların kökündə Qarabağ uğrunda savaş durur. Dünyanın cənnət guşəsinə əvvəlcə ruslar, sonra da ermənilər göz dikib. İbrahim xan xanlıqları birləşdirmək, güclü düşmənlərlə savaşdan qalib çıxmaq, torpaqları qorumaq üçün vuruşur. Torpaq bütövlüyü xatirinə sevimli qızı Ağabəyimin məhəbbətini ürəyində qoyur. Mən də İbrahim xanı bu cür oynayıram.

Kazım müəllimə tamaşada uğurlar arzulayıb “Qarabağnamə”də Saday bəyi oynayan Sabir Məmmədovu axtarırıq. **Xalq artisti Sabir Məmmədov** 1996-cı ildən bəri bu tamaşanın Saday bəyidir. Ona belə müraciət edən kimi söyləyir ki, Əməkdar artist Rövşən Kərimduxt ona dublyordur. Yeri gəlmişkən, Rövşən Kərimduxt bu tamaşada əvvəlcə Hüseynqulu xan rolunda da çıxış edib. Biz isə Sabir müəllimdən öz obrazı barədə fikirlərini soruşuruq:

- Saday Şirxan oğlu Cənubdan Qaradağ xanının hədiyyəsini Qarabağ xanı İbrahim xana gətirən igiddir. Kirs dağının ətəyində qoca çinarın altındakı ipək çadırın qapısında bir gözəli - Ağabəyim ağanı görüb ona aşiq olur.

Vanya yüzbaşı bu tamaşadakı bütün obrazlardan fərqlənir. İbrahim xana qarşı satqınlıq edir, öz millətinin xətrinə ruslara işləyir, ermənilərin Qarabağ torpaqlarına yerləşdirilməsinə xidmət edir. Mən rol üzərində işləyəndə çalışmışam ki, Vanyanın simasında erməni hiyləgərliyini, satqınlığını, qəddarlığını elə göstərim ki, tamaşaçı düşmənə nifrət etsin. O, arvadına da belə deyir: “Mən neyləyirəmsə, erməni xalqı üçün edirəm. İnanıram ki, erməni xalqı məni heç vaxt unutmayacaq”.

“Qarabağnamə” barədə ən dolğun, ən geniş danışa biləcək şəxs də teatrdadır: **Xalq artisti Mərahim Fərzəlibəyov:**

- 1990-cı ildə 20 Yanvar faciəsindən sonra İlyas müəllim hər  söhbətində deyirdi ki, şəhidlərə əsər ithaf etmək istəyir. İlyas müəllim 20 Yanvarın, Azərbaycanın bütün faciələrinin məntiqi başlanğıcı kimi İbrahim xan dövrünə müraciət etdi. Əsərin titul vərəqində də yazmışdı ki, XVIII əsrin sonundakı Qarabağ şəhidlərinə və 20 Yanvar şəhidlərinə ithaf olunur. Amma 1990-cı ildə “Qlavlit” adlanan senzura idarəsi bu pyesin tamaşaya qoyulmasına icazə vermədi.

**- Belə çıxır ki, müstəqillik qazanılmalıydı ki, “Hökmdar və qızı” səhnəyə çıxsın?**

- Bəli. Müstəqillik qazanıldıqdan sonra əsər üzərində işə başladıq. Birinci quruluşda görkəmli aktyorlarımız – mərhumlar Əliabbas Qədirov, Bürcəli Əsgərov, Aqşin Vəlixanlı, Elxan Ağahüseynoğlu, Səyavuş Aslan, eləcə də xalq artistləri  Bəsti Cəfərova, Hacı İsmayılov, Ramiz Məlik, Səfurə İbrahimova, Əməkdar artist Münəvvər Əliyeva çıxış etdilər. 1997-ci il sentyabrın 20-də ulu öndərimiz Heydər Əliyev Azərbaycanın dostu, görkəmli həkim və ictimai xadim

“Qarabağnamə” (“Hökmdar və qızı”) tamaşası barədə bir fikir də var ki, onu bu yazıya daxil etməyə bilməzdik. Mərahim müəllimin də xatırlatdığı həmin tarixi gündə - Azərbaycan Prezidenti Heydər Əliyev əsərə baxdıqdan sonra yaradıcı heyətilə görüşdə bu fikirləri söyləmişdi: “Bu əsər xalqımızda vətənpərvərlik yaradır, müstəqillik, milli azadlıq hissiyyatlarını beyinlərə həkk etdirir, xalqımızı, əsasən gəncləri bu istiqamətdə tərbiyələndirir. Bu baxımdan əsərin aktuallığı çox böyükdür. İndi hər kəs bilsin ki, müstəqillik nədir və öz xalqının müstəqilliyini qorumayan adamların aqibəti necə olur... Xalqımızı bu təhlükədən qorumaq, birləşdirmək və həmrəy etmək üçün, Azərbaycanın bu ağır dövründə müstəqilliyimizi qoruyub saxlaması üçün bu əsərin çox böyük əhəmiyyəti var - həm pyesin, həm də sizin yaratdığınız bu tamaşanın”.

* * *

Ötən bazar günü “Qarabağnamə”nin neçənci dəfə oynanıldığını kimdən soruşduqsa, bilmədi. Xoşbəxt insanlar saatı, zamanı hiss etmədikləri kimi, rol sarıdan bəxti gətirən aktyorlar da statistika həvəslisi olmazlar. Əslində, teatrın arxivini qaldırıb sayı dəqiqləşdirmək də olar. Amma gərəkmi? Hər birimizi iki yüz ildən bəri izləyən, taleyimizə düyün vurub, ürəyimizdə çapıq qoyan Qarabağ dərdindən bəhs edən əsərdə çıxış etmək, tarixi qəhrəmanların obrazını yaradaraq onları iki-üç saatlığa da olsa, bizim müasirimiz edən aktyorlar neçənci dəfə “Qarabağnamə”də səhnəyə çıxdıqlarının sayını itiriblər. Bununla belə, bütün yaradıcı kollektivin tamaşa ilə bağlı bir arzusu var: “Qarabağnamə”ni Şuşada, Cıdır düzündə açıq havada oynamaq! Tanrı istəyimizi gözümüzdə qoymasın!

**Gülcahan MİRMƏMMƏD**

## Xatirə təqvimi 23-25 yanvar

### Azərbaycan

**23 yanvar 1878** – Əməkdar artist, teatr xadimi, rejissor Yunis Nuri (Yunis Hacı Süleyman oğlu Süleymanov; 1878 -5.1.1950) İrəvanda doğulub. İrəvan Azərbaycan teatrının yaradıcılarından biri olub.

**23 yanvar 1927** – Xalq artisti, tanınmış rəqqas Böyükağa (Mirməmməd) Mircəfər oğlu Məmmədov (1927 – 17.1.2017) anadan olub. Filarmoniyanın Mahnı və Rəqs Ansamblının solisti olub. “Cücələrim” rəqs ansamblına rəhbərlik edib. Milli rəqs sənətimizin inkişafında xidmətlər göstərib.

**23 yanvar 1946** – Əməkdar incəsənət xadimi, bəstəkar Həsənağa Əfrasiyab oğlu Adıgözəlzadə (1946 – 29.4.2018) Bakıda anadan olub. Kantata, simfoniya, süita və digər janrlarda əsərlər yazıb. Bursa Simfonik Orkestrinin ilk rəhbəri olub.

**24 yanvar 1905** – Ədəbiyyatşünas alim Məmmədkazım Ələkbərli (1905-1938) Dərbənd şəhərində anadan olub. BDU-nun rektoru, Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin ilk sədri olub. “Azərbaycan ədəbiyyatı” kitabının müəllifidir.

**24 yanvar 1909** – Xalq artisti, professional təhsil almış ilk azərbaycanlı dirijorlardan Əşrəf Həsən oğlu Həsənov (1909 - 9.8.1983) anadan olub.

**24 yanvar 1922** – Aşıq Şakir (Şakir Şahverdi oğlu Hacıyev; 1922 - 10.4.1979) anadan olub.

**25 yanvar 1887** – Yazıçı, ədəbiyyatşünas, pedaqoq Seyid Hüseyn (Hüseyn Mirkazım oğlu Sadıqzadə; 1887 - 6.1.1938) Bakıda doğulub. Bu gün də bədii təravətini saxlayan maraqlı hekayələrin müəllifidir. Repressiya qurbanı olub.

**25 yanvar 1984** – Görkəmli aktyor, Xalq artisti Məmmədrza Şeyxzamanov (4.8.1915 - 1984) vəfat edib. “Bəxtiyar”, “Bir qalanın sirri”, “Qatır Məmməd”, “Nəsimi”, “Əhməd haradadır?”, “Tütək səsi” filmlərində yaddaqalan obrazlar yaradıb.

### Dünya

**23 yanvar 1783** – Fransız yazıçısı, XIX əsrdə realist roman janrının banilərindən biri Anri Mari Stendal (Marie-Henri Beyle – Stendhal; 1783-1842) anadan olub. “Qara və qırmızı”, “Parma monastırı” və s. romanların müəllifidir.

**23 yanvar 1832** – Fransız rəssamı, impressionizmin banilərindən biri Eduard Mane (Edouard Manet; 1832-1883) anadan olub.

**23 yanvar 1903** – Rus kinorejissoru, SSRİ Xalq artisti Qriqori Aleksandrov (Mormonenko; 1903-1983) anadan olub. Sovet kinosunda ilk musiqili komediyaları (“Şən uşaqlar”, “Volqa-Volqa”) çəkib.

**23 yanvar 1930** – Sent-Lusiya (Karib dənizində kiçik ada-dövlət) şairi və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1992) Derek Elton Uolkot (Derek Alton Walcott; 1930 – 17.3.2017) anadan olub. 70-ci illərdə ABŞ-a köçüb.

**24 yanvar 1732** – Fransız dramaturqu Pyer Bomarşe (Pierre-Augustin Caron de Beaumarchais; 1732-1799) anadan olub. “Sevilya bərbəri”, “Fiqaronun evlənməsi” komediyalarının müəllifidir.

**24 yanvar 1776** – Alman yazıçısı, bəstəkar, rəssam Ernst Teodor Vilhelm Amadey Hofman (Ernst Theodor Amadeus Hoffmann; 1776-1822) anadan olub. Əsərləri: “Şeytan eliksiri”, “Birələr hökmdarı” romanları, “Qızıl qazan” povesti, “Şelkunçik (findıqqıran – red.) və siçanlar kralı” nağılı (P.İ.Çaykovski nağıl əsasında balet yazıb).

**24 yanvar 1848** – Rus rəssamı Vasili İvanoviç Surikov (1848-1916) anadan olub. Əsərləri: “Strelets edamının səhəri”, “Suvorovun Alp dağlarını aşması”, “Stepan Razin” və s.

**25 yanvar 1759** – Şotland şairi Robert Berns (Robert Burns; 1759 - 21.7.1796) anadan olub. Bernsin şərəfinə 25 yanvar Şotlandiyada milli bayram günü kimi qeyd olunur.

**25 yanvar 1832** – Rus rəssamı, peyzaj ustası İvan Şişkin (1832-1898) anadan olub. Məşhur əsərləri: “Ağcaqayın meşəsində səhər”, “Çovdar tarlası” və s.

**25 yanvar 1874** – İngilis yazıçısı Uilyam Somerset Moem (William Somerset Maugham; 1874-1965) anadan olub. “Ehtiraslar yükü”, “Ay və quruş” romanlarının, “Teatr”, “Ülgücün tiyəsi” povestlərinin müəllifidir.

**25 yanvar 1882** – İngilis yazıçısı Virciniya Vulf (Virginia Woolf; 1882-1941) anadan olub. Romanları: “Missis Delloey”, “Mayaka doğru”, “Orlando” və s.

**25 yanvar 1938** – Rus şairi və müəllif mahnıları ifaçısı, aktyor Vladimir Vısotski (1938 - 25.7.1980) anadan olub. “Görüş yerini dəyişmək olmaz”, “İntervensiya”, “Çar Pyotr ərəbi necə evləndirdi” və s. filmlərə çəkilib.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 23-25 yanvar

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 24 yanvar | Ç.Aytmatov - “Manqurt” (A.M.Şərifzadə səhnəsi) | 19.00 |
| 25 yanvar | Y.Polyakov - “Sinif yoldaşları” | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 25 yanvar | Ü.Hacıbəyli - “Arşın mal alan” | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 25 yanvar | T. Vəliyeva - “Cəza” (kiçik səhnə) | 19.00 |

**Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 25 yanvar | Anar – “Get mənim yuxularımdan” (“Təhminə və Zaur”) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 25 yanvar | N.Kazımov - “Ələddin” | 12.00, 14.00 |
| | Rus xalq nağılı - “Durna balığı” (rus dilində) | 16.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 25 yanvar | Xalq artisti, professor, violin ifaçısı Zəhra Quliyevanın ifaçılıq və pedaqoji fəaliyyətinin 40 illiyinə həsr olunmuş konsert. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor - Rauf Abdullayev) | 19.00 |

**Filarmoniyanın Kamera və Orqan Musiqisi Zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 23 yanvar | “Gənclərə dəstək” layihəsində “Qış kaleydoskopu” adlı konsert | 19.00 |

# Azərbaycanlı rejissorun filmi “Körpülər”ə çıxıb




Brüssel İncəsənət Sarayında (BOZAR) Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə mədəni əməkdaşlıq proqramı çərçivəsində artıq ikinci ildir təşkil edilən “Bridges” (“Körpülər”) film festivalı çərçivəsində azərbaycanlı rejissor Hilal Baydarovun “Ad günü” sənədli filmi nümayiş olunub.

Film yerli tamaşaçı auditoriyası ilə yanaşı, Belçikada yaşayan azərbaycanlılar tərəfindən də maraqla izlənilib. Filmin nümayişindən sonra rejissor tamaşaçıların suallarını cavablandırıb.

Hilal Baydarov 1987-ci ildə Bakıda doğulub. Kompüter elmləri üzrə ali təhsil (o cümlədən 2013-cü ildə magistr dərəcəsi) alsa da, kino yaradıcılığı ilə məşğul olur.

Rejissorun ilk bədii filmi – “Adsız yüksəkliklər” (2018) Monreal (Kanada) və Kotbus (Almaniya) festivallarında göstərilib. Bundan sonra o, “Ad günü” və “Bir gün Səlimpaşa”da sənədli filmlərini çəkib. “Ad günü” ötən il Sarayevo Beynəlxalq sənədli filmlər festivalında mükafat qazanıb.

Onu da qeyd edək ki, yanvarın 21-dən etibarən Bakıdakı “Flame Towers”də yerləşən “Park Cinema”da Hilal Baydarovun “Adsız yüksəkliklər” bədii filminin nümayişi başlanacaq. Xronometrajı 93 dəqiqə olan ekran əsəri fəlsəfi problemdən – insanın təbiət qarşısında diz çökməsindən bəhs edir.

## “Şənbə gecəsi və digər hekayələr”

### Afaq Məsudun kitabı Misirdə nəşr olunub

Tanınmış yazıçı, dramaturq, tərcüməçi Afaq Məsudun “Şənbə gecəsi və digər hekayələr” adlı kitabı Misirdə nəşr olunub.



Misir Milli Tərcümə Mərkəzi tərəfindən ərsəyə gətirilmiş kitaba yazıçının müxtəlif illərdə qələmə aldığı “Sərçələr”, “Qəza”, “Can üstə”, “Dovşanın ölümü” kimi hekayələri daxil edilib.

Əsərləri ərəb dilinə azərbaycanşünas alim Əhməd Sami əl-Aydi çevirib.

Ərəb oxucularına ilk dəfə təqdim olunan kitab barədə Misirin “Əl-Ahram”, “Elwatannews” qəzetlərində, ədəbiyyat portallarında geniş yazılar verilib.

## Fransızdilli oxuculara Azərbaycan ədəbiyyatı haqqında

Strasburq şəhərində fəaliyyət göstərən “Kəpəz” nəşriyyat evində “Litterosa” dərgisinin ilk nömrəsi işıq üzü görüb.

Nəşrin yaradıcısı və baş redaktoru Nicat Kazımovun verdiyi məlumata əsasən ikinci nömrədə M.F.Axundzadə və Nəsimi haqqında məqalələr dərc ediləcək.



“Litterosa” dərgisi dünya ədəbiyyatı, eləcə də Azərbaycan ədəbiyyatı və yazıçıları haqqında məlumatlar verir. Nəşrin ilk nömrəsində Nizami Gəncəvi, Alber Kamyu, Fridrix Nitsşe, Anton Çexov və Hüseyn Abbaszadə haqqında məqalələr və onların əsərləri yer alıb.

Dərginin əsas məqsədi Azərbaycan ədəbiyyatı haqqında fransız dilində mənbə formalaşdırmaq, tədqiqatçılara bu sahədə istinad edə biləcəkləri məlumatlar verməkdir.

Onun sözlərinə görə, dərgi “Kəpəz” nəşriyyatının kitablarına əlavə edilərək oxuculara hədiyyə olunacaq: “Bu, fransızdilli oxuculara Azərbaycan ədəbiyyatı, yazıçılarımızla tanış olmaq imkanı yaradacaq”.

# Poçtalyonun “İdeal saray”ı

### Tarixi-mədəni abidə kimi qorunur

Həyatda elə insanlar var ki, öz məqsədinə nail olmaq üçün heç bir çətinliklərə baxmır, daha çox çalışır və sonda arzusuna çatır. Belə insanlardan biri də fransalı poçtalyon Jozef-Ferdinand Şevaldır. O, 33 il müddətinə (1879-1912) böyük zəhmət bahasına öz arzusunu reallaşdırıb.



Jozef-Ferdinand Şeval 1836-cı ildə Fransanın Şarm kəndində kasıb ailədə anadan olub. Bir neçə il məktəbə getdikdən sonra 13 yaşında məktəbi yarımçıq qoyub çörəkçinin yanında işləyir. Ailə həyatı qurduqdan sonra isə həyat yoldaşı ilə birlikdə Otriv kəndinə köçür və orada poçtalyon işləməyə başlayır. O, vəzifə borcunu yerinə yetirmək üçün hər gün kilometrlərlə yol qət etməli olur. Hər dəfə poçtalyonluq edərkən bir-birindən gözəl sarayların yanından keçəndə arzulayırdı ki, nə vaxtsa onun da belə bir sarayı olsun. Bir dəfə yenə yol gedərkən ayağı daşa ilişir və yıxılır. Ayağa qalxıb daşı yerdən götürür və çaydaşının gözəlliyi onun çox xoşuna gəlir. Həmin an ağlına bir fikir gəlir ki, tikinti materialı alıb saray tikməyə imkanı olmasa da, təbiətin zənginliyindən istifadə edib gözəl saray tikmək olar. Bundan sonra Ferdinand hər gün yol gedərkən müxtəlif formalı daşları yığmağa başlayır. Beləliklə, o, müxtəlif hava şəraitində, hətta soyuqda belə, heç bir kömək olmadan, gecəgündüz öz sarayını tikir.

Ferdinand 4 fasaddan ibarət “İdeal saray”ını 2 mərtəbəli (uzunluğu 26 metr, eni 14 və hündürlüyü 10 metr) tikir. Poçtalyon xristianlıqdan buddizmə kimi bütün dinləri, beş qitədəki mədəniyyətləri ayrı-ayrı fasadlarda təsvir edir. Sarayın tikintisinə şərq fasadından başlayır və “Yaşam qaynağı” adlı bulaq da inşa edir. Fasadın mərkəzində isə “fironlar kimi” dəfn olunmağı istədiyinə görə ikitağlı Misir məbədi inşa edir.

Ferdinand öz duyğularını Şimal fasadında daha qabarıq inşa edir. Qərb fasadında hindu məbədi, qala və məscid tikir. Cənub fasadında isə o, sarayın tikintisindən qalan daşların toplanıb saxlandığı bir muzey də yaradır. Bundan başqa, sarayı quş, fil, şir, ayı kimi bir çox heyvanın, div və pərilər kimi fantastik məxluqların fiqurları ilə bəzəyir. Divara “1879-1912, 10000 gün, 93000 saat və 33 il çətin əmək” yazısını da həkk etdirir.

Jozef-Ferdinand Şeval 1924-cü ildə, 88 yaşında vəfat edir və Hauterives məzarlığında, özünün inşa etdiyi “Səssizlik və sonsuz istirahət” sərdabəsində dəfn edilir.

1969-cu ildə “İdeal saray”ın Fransa hökuməti tərəfindən rəsmi olaraq mədəni və tarixi abidə kimi tanınmasında məşhur rəssam Pablo Pikassonun böyük rolu olur. Çoxlu turisti özünə cəlb edən sarayda hazırda məşhur müğənnilərin konsertləri və sərgilər keçirilir.

**Səbinə ƏLİBALAQIZI**

## Məşhur blokbasterlərin müəllifi vəfat edib

Tanınmış kinoprodüser Endryu Vayna (Andrew G. Vajna) yanvarın 20-də, 75 yaşında Budapeştdə vəfat edib. Endryu Vaynanın Mario Kassarla bünövrəsini birgə qoyduğu “Carolco Pictures” şirkəti “Rembo” trilogiyası, “Terminator” seriyasından iki film, “Çətin adam”, “Mələyin ürəyi” kimi məşhur ekran əsərlərini çəkib.



1944-cü ildə Macarıstanın paytaxtında doğulan E.Vayna 1956-cı ildə əvvəlcə Kanadaya, sonra isə Amerika Birləşmiş Ştatlarına mühacirət edib. Kaliforniya Universitetini bitirib.

Silvester Stallone, Arnold Şvatsnegger kimi kino ulduzları ilə məşhur blokbasterlərin prodüseri olan Endryu Vayna Şərqi Avropada kommunizm ideologiyasının iflasa uğramasından sonra tarixi vətəninə qayıdaraq burada “İntercom”u – Macarıstanın iri kino və DVD distribüterini yaradaraq ona rəhbərlik edib. Baş nazir Viktor Orbanın məsləkdaşı olan E.Vayna ölkənin kino sənayesi məsələləri üzrə hökumət komissarı vəzifəsində çalışıb.

# “Yaşıl kitab”dan “Oskar”a doğru bir addım

### “Qızıl qlobus”dan sonra Amerika Prodüserlər Gildiyasının baş mükafatını da qazanıb

Rejissor Piter Farrellinin “Yaşıl kitab” (“Green Book”) filmi Amerika Prodüserlər Gildiyasının (PGA) “Ən yaxşı film” baş kateqoriyasında mükafata layiq görülüb.

Mükafatın təqdim edilmə mərasimi Beverli-Hillzdə (Kaliforniya ştatı) yanvarın 19-da keçirilib.

Xatırladaq ki, ekran əsəri yanvarın əvvəlində “Ən yaxşı komediya filmi, yaxud müzikl” nominasiyasında “Qızıl qlobus” qazanıb. Hollivud Xarici Mətbuat Assosiasiyası tərəfindən təsis olunan mükafat “Oskar”dan (Amerika Kino Akademiyası) sonra ikinci nüfuzlu müsabiqə sayılır.

Amerika Prodüserlər Gildiyasının mükafatı uğrunda əsas nominasiyada “Qızıl qlobus”un daha iki laureatı – Brayan Singerin “Queen” rok qrupu və onun solisti Freddi Merkiuridən bəhs edən “Bohem rapsodiyası” (“Ən yaxşı dram filmi”) və meksikalı Alfonso Kuaronanın “Roma”sı (“Ən yaxşı rejissor”) da yarışırdı.




Kino tənqidçilərinə görə, “Yaşıl kitab”ın “Qızıl qlobus”un ardınca PGA mükafatını da qazanması onun “Oskar”a iddiasını gücləndirib.

Filmdə caz pianoçusu Don Şirli, onun sürücüsü və mühafizəçisi Toni Lipin 1962-ci ildə ABŞ-ın cənubuna səyahətindən danışılır. Ekran əsərində Viqqo Motrensen, Maherşala Ali, Linda Kardellini və başqaları çəkilib. Film ötən ilin sentyabrında 43-cü Toronto kinofestivalında Qran-priyə də layiq görülüb.

**İLONA**

## Mətbəx nümunələrimiz Küveytdə təqdim olunub

Küveytin paytaxtı Əl-Küveyt şəhərində keçirilən 25-ci “Mədəniyyət festivalı” çərçivəsində xarici ölkə səfirliklərinin iştirakı ilə beynəlxalq kulinariya festivalı təşkil edilib. Festivala Azərbaycanın Küveytdəki səfirliyi də qatılıb.



Səfirlikdən bildiriblər ki, ölkəmiz üçün ayrılan guşədə milli yemək və şirniyyatlarımız, eyni zamanda ölkəmizin mədəniyyəti və turizm imkanlarını əks etdirən kitab, buklet, broşür, habelə suvenirlər, milli geyimlər nümayiş etdirilib. Azərbaycanın ən məşhur yerlərini, füsunkar təbiətini özündə əks etdirən fotostendlərlə yanaşı, səfirliyin təşəbbüsü ilə elektron turizm üzrə ekspert, küveytli bloger tərəfindən hazırlanan Azərbaycanın interaktiv turizm xəritəsi də nümayiş etdirilib.

Ziyarətçilərə səfirliyin əməkdaşları, həmçinin “Vətənsevər” Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri tərəfindən milli mətbəximizin nümunələri təqdim edilib, ölkəmizin gəzməli-görməli yerləri haqqında məlumat verilib.

Əl-Əhmədi bölgəsinin qubernatoru və Küveyt Dövlətinin Mədəniyyət, İncəsənət və Ədəbiyyat üzrə Milli Şurasının baş katibi iştirakçı səfirliklərin stendləri ilə tanış olublar.

## Özbəkistan televiziyasında ölkəmizlə bağlı daha bir veriliş

Özbəkistanın “Dunyo boylab” televiziya kanalında Azərbaycan haqqında veriliş yayımlanıb. Veriliş ötən il Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə özbək jurnalistlərinin ölkəmizə mediaturu zamanı lentə alınıb.




Verilişin müəllifi jurnalist Gülsarə Saqatxanova Azərbaycanın abad və sabit inkişaf edən ölkə olduğunu qeyd edir. Proqramda Bakı şəhərinin gözəlliyi, tarixi, görməli yerləri haqqında söhbət açılır.

Aparıcı xalqımızın zəngin mədəniyyəti, tarixi haqqında danışır, Azərbaycan xalçalarına xüsusi yer ayırır, Xalça muzeyində ölkəmizin regionlarına xas olan xalçaları nümayiş etdirir, onların fərqli xüsusiyyətlərini izah edir.

Milli Azərbaycan Tarixi Muzeyində olan jurnalist muzeyin tarixi haqqında da məlumat verir. Müəllif Azərbaycanın regionları, habelə gözəl təbiəti, füsunkar iqlimi ilə tanınan İsmayıllı rayonuna səfərdən də söhbət açır. O, Lahıc qəsəbəsindən ətraflı danışaraq qeyd edir ki, azərbaycanlılar Lahıcı “misgərlik səltənəti” adlandırırlar.

## İspaniya dördyüzillik teatrı UNESCO siyahısına salmaq istəyir

İspaniyanın Syudad-Real əyalətindəki Almaqro şəhərinin şurası elan edib ki, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi üçün ölkənin ən qocaman teatrlarından birinin – “Corral de Comedias”ın namizədliyini təqdim edəcək.



Alkala-de-Enaresdə yerləşən “Corral de Comedias” teatrı 1601-1602-ci illərdə inşa olunub. Bu, Avropada zəmanəmizə gəlib çatmış ən qocaman teatrlardan biridir. Teatrın memarı Fransisko Sançes olub. Bina Avropa memarlığının unikal əsəridir, çünki bu teatrın səhnəsində dörd əsr ərzində tamaşalar oynanılıb. Açıq səma altında yaradılan teatrın dekorasiyaların əvəzlənməsi üçün mexanizmi və orkestr üçün yeri var.

Teatrın namizədliyi yanvarın 25-də Madriddə Beynəlxalq turizm sərgisində təqdim ediləcək.

Qeyd edək ki, UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası bu ilin yayında Bakıda keçiriləcək.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

Baş redaktor: Vüqar Əliyev

Ünvan: AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

Telefon: (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
E-mail: qazet@medeniyyet.az
Lisenziya № AB 022279
İndeks: 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
Tiraj: 5245
Sifariş: 285
Buraxılışa məsul: Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.